**Azərbaycan və Türkiyə münasibətləri dinamik inkişafdadır**



Bax 5

**"Bu gün laqeydlik yolverilməzdir"**



Bax 4

**"Mübariz Mənsimov üçün insanların aksiyalara çağırılması doğru deyil"**



Bax 6



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 053 (6018) 19 mart 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.




Prezident İlham Əliyev Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonrakı açılışında iştirak edib

Bax 2

## "Bizim əsas məqsədimiz insanlar üçün gözəl imkanlar, rahat şərait yaratmaqdır"

## Yeni Azərbaycan Partiyası koronavirusa qarşı mübarizəyə qoşulur



Dünyanı ciddi təşvişə salan, minlərlə insanın ölümünə səbəb olan koronavirus pandemiyasına qarşı mübarizə Azərbaycan hökumətinin fəaliyyətində ön plana çıxıb.Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında...

Bax 6

## Dövlət lazımi tədbir görür, əhali də təmkinli olmalıdır



*Bu gün dünya 21-ci əsrin, bəlkə də, ən böyük problemi ilə amansız mübarizədədir. Artıq pandemiyaya çevrilən koronavirus infeksiyasına qarşı dünyanın bütün ölkələri səfərbər olub. Çinin Uhan şəhərində başlayan koronavirus dalğası Şimali Amerikaya qədər gedib çıxıb. Bu virus heç bir sərhəd tanımır.*

Bax 8

Bax 9

## 19 Mart terror aktından 26 il ötür



*Bu gün 1994 - cü il martın 19-da erməni xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında törədiən terror aktından 26 il ötür. Terror nəticəsində, 14 nəfər həlak olub, 49 nəfər yaralanıb. Həlak olanların arasında Azərbaycan Respublikasının xalq artisti Rafiq Babayev də var idi.*

## Azərbaycan musiqi tarixinin korifeyi - Xan Şuşinski

Bax 11



*Ömrünü xalq musiqisinin təbliğinə həsr edənləri xalq heç vaxt yaddan çıxarmır, unutmur. İllər ötdükcə bu qəbildən olan insanların xatirəsi daha böyük hörmət və ehtiramla yad olunur. Azərbaycan muğam sənətinin, klassik musiqi nümunələrinin gözəl bilicisi, orijinal, özünəməxsus ifa tərzi ilə seçilən, milli musiqi xəzinəmizin zənginləşməsində misilsiz xidmətləri olan Xan Şuşinski də belə sənətkardandır.*

## Dünyada koronavirusa yoluxanların sayı 198 543 nəfərə çatıb

Bax 16



Dünya Səhiyyə Təşkilatı yeni növ koronavirusla bağlı (COVID-19) martın 18-nə olan vəziyyəti açıqlayıb. Məlumatda qeyd olunur ki, 2019-cu ilin dekabrında Çində baş qaldırmış yeni koronavirus artıq 166 ölkəyə yayılıb.

## Ölkədaxili sərnişin qatarlarının hərəkəti dayandırılır

Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı məlumata əsasən, martın 19-da saat 00:00-dan etibarən Sumqayıt və Abşeron istisna olmaqla, ölkənin bütün şəhər və rayonlarından qatar vasitəsilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna sərnişin daşınması dayandırılır...





Bax 9

**Əli Kərimli karantinə alınsın və məsuliyyətə cəlb olunsun!**



Bax 14

**"Bakıya giriş çıxışın məhdudlaşdırılması virusu lokallaşdıracaq"**



Bax 11

**Bakıda kuryoz cinayətin üstü açılıb**





Bax 14

# "Bizim əsas məqsədimiz insanlar üçün gözəl imkanlar, rahat şərait yaratmaqdır"

## *Prezident İlham Əliyev Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonrakı açılışında iştirak edib*








**Martın 18-də Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.**




Dövlətimizin başçısı Pirşağı stansiyasından qatarla Görədil dayanacağına yola düşdü. Yenidən qurulan Pirşağı-Görədil-Novxanı-Sumqayıt sərnişin xəttinin açılışı ilə Abşeron dairəvi dəmir yolu tam istismara verilir. Belə ki, Bakı sərnişin-Keşlə-Koroğlu-Bakıxanov-Sabunçu dəmir yolu xətti ötən ilin mayında, Sabunçu-Zabrat 1-Zabrat 2-Məmmədli-Pirşağı dəmir yolu xətti isə ötən ilin noyabrında artıq istismara verilib. Abşeron dairəvi dəmir yolu xəttinin istismar uzunluğu 91, stansiya yolları ilə birlikdə ümumi uzunluğu isə 198 kilometrdir.

Sonra Prezident İlham Əliyev Görədil dayanacağına gəldi. Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi. Burada Görədildə yaşayan əhalinin dəmir yolu xidmətlərindən yüksək səviyyədə istifadə etməsi və onların rahatlığı üçün hər cür şərait yaradılıb. Bina bütün zəruri infrastrukturla təchiz olunub. Buradakı platformalar da ən müasir səviyyədə yenidən qurulub.

Görədil-Novxanı-Sumqayıt sərnişin xətti boyu, ümumilikdə, 15 stansiya və dayanacaq inşa edilib və əsaslı təmir olunub. Yenidən qurulan Görədil dayanacağının ümumi sahəsi 6300, Novxanı dayanacağının ümumi sahəsi isə 8 min kvadratmetrdən çoxdur. Xətt boyu yerləşən bütün dayanacaqlarda yeni platformalar, yeraltı piyada keçidləri, avtomobillər və velosipedlər üçün dayanacaqlar inşa edilib. Pirşağı-Görədil-Novxanı-Sumqayıt sərnişin dəmir yolu xətti istiqamətində 3 avtomobil tuneli və 8 piyada keçidi layihələndirilib.

Daha sonra dövlətimizin başçısı Görədil dayanacağından Novxanı dayanacağına yola düşdü.

Qatarların hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədilə xətt üzərində 10 yeraltı avtomobil tuneli tikilib, ikisinin isə inşası davam edir. Piyadaların təhlükəsizliyini təmin etmək üçün ümumilikdə, 25 yeraltı və yerüstü piyada keçidi inşa olunub, dəmir yolu, rabitə və işarəvermə sistemi yenidən qurulub. Sürətli qatarın hərəkətinin təhlükəsizliyini təmin etmək üçün zəruri işlər görülüb.

Dövlətimizin başçısı Novxanı dayanacağına gəldi.

Novxanı dayanacağında da sərnişinlərin rahatlığı üçün bütün zəruri şərait var. Bu dayanacaq da yenidənqurmadan sonra ən müasir səviyyədə fəaliyyət göstərəcək. Ətrafda geniş abadlıq-quruculuq, yaşıllaşdırma işləri görülüb, işıqlandırma sistemi yaradılıb.

Prezident İlham Əliyev burada Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra rəmzi açılışını bildirən lenti kəsdi.

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanov Abşeron dairəvi dəmir yolu xəttində aparılan yenidənqurma işləri və perspektiv layihələr barədə məlumat verdi.

*Ardı Səh. 3*

# “Bizim əsas məqsədimiz insanlar üçün gözəl imkanlar, rahat şərait yaratmaqdır”

*Prezident İlham Əliyev Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonrakı açılışında iştirak edib*



Əvvəli-Səh-4

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Əhalinin sosial məsələlərinin həllinə, onların sosial rifahının daha da yaxşılaşdırılmasına dövlət səviyyəsində xüsusi diqqətlə yanaşılır və bununla bağlı ardıcıl layihələr icra olunur. Ölkəmizdə, ümumilikdə, sosial infrastrukturun yenilənməsi istiqamətində həyata keçirilən işlər dünyada bu sahədə tətbiq olunan ən müasir standartlara cavab verir. Son illərdə Prezident İlham Əliyevin tapşırıqlarına əsasən Azərbaycanda dəmir yolunun müasirləşdirilməsi istiqamətində də çox mühüm və ardıcıl layihələr həyata keçirilib. Bu, ölkəmizin iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, Azərbaycanda dövlət səviyyəsində sosial sahəyə olan diqqəti də aydın göstərir.

Görülən işlər nəticəsində Azərbaycanda yaradılan ən müasir yol-nəqliyyat infrastrukturu, ilk növbədə, vətəndaşların rahatlığına xidmət edir. Bu layihələr sırasında Abşeron dairəvi dəmir yolu xəttinin yenidən qurulması böyük əhəmiyyət daşıyır. Bu layihənin reallaşması paytaxt ətrafındakı qəsəbələrdə yaşayan sakinlərin rahat və təhlükəsiz şəkildə şəhər istiqamətinə və geriyə, mənzil başına çatmasına hərtərəfli imkan yaradır.



Dövlətimizin başçısı burada dəmiryolçularla görüşdü.

Qarşıdan gələn bayram münasibətilə dəmiryolçuları təbrik edən Prezident İlham Əliyev qeyd edib ki, Bakı şəhərinin ən önəmli nəqliyyat layihələrindən biri olan dairəvi dəmir yolu xətti Novruz bayramı ərəfəsində istismara hazırdır. Bu, həm Bakı sakinlərinə, eyni zamanda, Sumqayıt şəhərinin, Abşeron rayonunun sakinlərinə xidmət göstərəcək. Ümumiyyətlə, bu imkandan milyonlarla insan istifadə edəcək:

“Beləliklə, şəhərimizin və Abşeron yarımadasının ən önəmli nəqliyyat layihələrindən biri olan dairəvi xətt tamamlanıbdır.

Bu xəttin bir tərəfə uzunluğu 91 kilometrdir, amma bütövlükdə 200 kilometrə yaxın dəmir yolu çəkilişi təmin edilmişdir. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti belə böyük layihələri həyata keçirməklə öz sosial siyasətini davam etdirir. Çünki bu dairəvi yolun tikintisinə qoyulan xərclər bəlkə də 100 ildən sonra ancaq büdcəyə qayıda bilər. Çünki bizdə dəmir yolu tarifləri çox aşağıdır. Bizim əsas məqsədimiz insanlar üçün gözəl imkanlar, rahat şərait yaratmaqdır.

Bu dəmir yolunun tikintisi, eyni zamanda, şəhər nəqliyyatına da müsbət təsir göstərəcək, tıxaclar, avtomobil yollarına düşən yük azalacaq, Bakı və Sumqayıt şəhərlərinin, Abşeron rayonunun ekoloji vəziyyəti yaxşılaşacaq. Çünki havanı çirkləndirən ən böyük amil nəqliyyat vasitələridir. Avtobuslara tələbat azalacaq, indi müəyyən marşrutlarda fəaliyyət göstərən avtobuslar digər marşrutlara köçürüləcək.

Bütövlükdə Bakı şəhərinin avtobus parkının müasirləşdirilməsi istiqamətində böyük işlər görülüb, ən müasir avtobuslar alınır. Bu il 300 yeni avtobusun gətirilməsi nəzərdə tutulur. Keçən il də 300 avtobus gətirilmişdir. Əlbəttə ki, bütün şəhərimizin və Abşeron yarımadasının nəqliyyat problemləri koordinasiyalı şəkildə həll olunur. Metro, dəmir yolu, avtobuslar, taksilər və bu gün bu baxımdan Azərbaycan qabaqcıl ölkələr sırasındadır.

Vətəndaşlar üçün çox rahat, ikimərtəbəli vaqonlar alınıb gətirilib. Bu vaqonlar dünyanın aparıcı şirkətlərinin istehsalıdır. Ən inkişaf etmiş ölkələrin paytaxtlarında bu vaqonlardan istifadə olunur. Deyə bilərəm ki, bu baxımdan biz bir çox ölkələri qabaqlamışıq. Yəni, kompleks tədbirlər nəticəsində və dövlət investisiya proqramı çərçivəsində aparılan bu işlər artıq tamamilə başa çatıb və dairəvi yol tam istifadəyə verilib.

Şadam ki, dəmiryolçular bu mühüm vəzifənin öhdəsindən şərəflə gəldilər. Dairəvi dəmir yolunun tikintisi ilə bağlı mən iki il bundan əvvəl Sərəncam imzalamışam və bu işlər qısa müddət ərzində görülüb. Yolun tikintisi ilə bağlı mənə müntəzəm olaraq məlumat verilirdi. Özüm şəxsən bir neçə dəfə bu yolun tikintisinin müxtəlif mərhələlərində vəziyyətlə maraqlanmışam, işin gedişinə nəzarət etmişəm. Bu, mənim bu yolun müxtəlif mərhələlərdə açılışında altıncı iştirakımdır. Müxtəlif dövrlərdə bu xətt boyunca altı dəfə getmişəm - Pirşağı stansiyası, Sabunçu dəmir yolu vağzalı, Sumqayıt dəmir yolu



vağzalı, Bakı dəmir yolu vağzalı və bu gün. Bütün bu qısa açılışlar bir məqsədi güdürdü ki, biz Novruz bayramına qədər xalqımızı sevindirək. Bu, Abşeron yarımadasında yaşayan insanlara bayramqabağı verilən ən böyük hədiyyələrdən biridir. Bu, bir daha onu göstərir ki, Azərbaycan dövləti sosial sahədə öz sözünü deyir. Baxmayaraq buna böyük vəsait tələb olunur, biz bunu edirik ki, insanlar rahat yaşasınlar, iş başına, mənzil başına daha tez çatsınlar və insanların təhlükəsizliyi təmin edilsin. Çünki bəzi hallarda avtomobil yollarında baş verən qəzalar əfsuslar olsun ki, çox ağır fəsadlar törədir. Ona görə təhlükəsizlik, ekoloji tarazlıq, vaxt, rahatlıq baxımından bütün bu amilləri tam təhlil edərək hər kəs bir daha görür ki, bu xəttin nə qədər böyük əhəmiyyəti var.

Bundan sonra da işlər davam etdiriləcək. Mənə bu gün təqdim edilən xəritədə “Azərbaycan Dəmir Yolları” QSC-nin gələcək planları göstərilir. Digər qəsəbələrə, kəndlərə dəmir yollarının çəkilişi nəzərdə tutulur, layihələr hazırlanır. Biz tədricən bu işləri görəcəyik ki, Abşeron yarımadasının əksər qəsəbələri rahat dəmir yoluna sahib olsunlar.

Bütövlükdə nəqliyyat sahəsində işlər yaxşı gedir. Keçən il də yaxşı uğurlarımız olub, bu il də. Həm dəmir yollarının, həm də avtomobil yollarının çəkilişi - bütün bu işlər hesab edirəm ki, ən yüksək səviyyədə aparılır. İndiki şəraitdə əsas vəzifə vaqonların dezinfeksiyasıdır. Bu sahəyə çox böyük diqqət göstərilməlidir. Çünki bütün dünya indi koronavirusdan əziyyət çəkir. Azərbaycan bu istiqamətdə önləyici tədbirlər görmüşdür. Məhz ona görə hazırda ölkəmizdə koronavirusun yayılması o qədər də geniş vüsət almayıb. Ancaq bu, elə bəladır ki, heç bir ölkə özünü tam sığortalanmış hesab edə bilməz. Hətta ən inkişaf etmiş ölkələrdə indi yaşanan böhran göz qabağındadır. Ona görə hər bir vətəndaş məsuliyyətli olmalıdır, öz şəxsi gigiyenasına fikir verməlidir. Eyni zamanda, ictimai işlərlə, ictimai nəqliyyatla məşğul olan qurumlar da bu işləri tam məsuliyyətlə görməlidirlər, tam dezinfeksiya aparılmalıdır ki, yoluxma hallarının sayı çox olmasın.

Əlbəttə ki, hazırda bizim sərhədlərimiz bağlıdır. Ancaq yükdaşımalar üçün heç bir ölkə öz sərhədini bağlamayıb. Ona görə yükdaşımalar istiqamətində bizim işlər davam etdiriləcək. Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaqdır. Sizi bir daha ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.”

x x x

Cavid Qurbanov: Cənab Prezident, bizə göstərdiyiniz qayğıya görə dəmiryolçular adından Sizə təşəkkür edirik.

Prezident İlham Əliyev: Sağ olun.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev “Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Sərəncam imzalayıb.

Sərəncama əsasən, Nizami rayonunun Keşlə qəsəbəsi ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə “Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 850 min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

* * *

Prezident İlham Əliyev yeni növ koronavirus (COVİD -19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında Sərəncam imzalayıb.

# “Bu gün laqeydlik yolverilməzdir”

*Azərbaycanın Birinci vitse-prezidenti koronavirus infeksiyası ilə bağlı xalqımıza müraciət edərək, həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə çağırıb*

Koronavirus (“COVID”-19) epidemiyası bu gün dünyanı narahat edən məsələlərdəndir. Yoluxma hallarının aşkarlanması, xəstəliyin yayılmasının qarşısının alınması və insanların həyatının xilas edilməsi və s. məqsədilə geniş işlər görülməkdədir. Bildiyimiz kimi, epidemiyanın daha çox yayıldığı ölkələr - Çin, Cənubi Koreya və İtaliyadır. Artıq dünya ölkələrinə yayılması genişlənib. Belə ki, koronavirus infeksiyası elan olunan epidemiya 167 ölkədə yayılıb. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına əsasən, dünyada virusa yoluxanların sayı 198 737 nəfər, həlak olanların sayı 7989 nəfərdir. Bu virusdan sağalanların sayı isə 82 779 nəfərdir.



Koronavirus infeksiyası ilə bağlı Azərbaycan xalqına müraciət edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva dünyanın qlobal çağırışla üz-üzə olduğunu vurğulayıb. “Hələ bir il bundan əvvəl, bizim əksəriyyətimiz, sadəlövhcəsinə güman edirdik ki, pandemiya, bu günədək bəlli olmayan və insan həyatına son qoyan təhlükəli xəstəliklər dövrü keçmişdə qalıb” deyə vurğulayan Mehriban xanım Əliyeva biologiya elminin, tibbin, əczaçılığın və texnologiyaların müasir inkişaf səviyyəsi, o cümlədən, bəşəriyyətin kollektiv intellekt səviyyəsi bizi müəyyən “sürprizlərdən” sığortaladığımıza inandığımızı bildirib: “Reallıq isə fərqli oldu. Nassem Talebin müzakirələrə səbəb olan “Qara qu quşu” dünyada hökm sürür. Müəllif öz məşhur kitabında yazır: “Hamı özünü təhlükədən qorumaq istəyir. Üsullardan biri - riskləri qiymətləndirmək və onları idarə etməkdir... Bizim nə qədər səy göstərməyimiz vacib deyil. Hər hansı bir riski dəqiqliklə proqnozlaşdırmaq qeyri-mümkündür”.

Məlumdur ki, infeksion xəstəliklər zamanı xəstəlik törədicisinin xəstələrdən sağlamlara kontakt və ya aralıq obyektləri vasitəsilə ötürülür. Koronavirusun insandan insana keçməsi, ilk növbədə, asqırıq və öskürək nəticəsində yaranan tənəffüs damlaları vasitəsilə yaxın təmaslar nəticəsində, baş verdiyi ehtimal edilir. İnsanda virusun simptomlarının aşkarlanması təhlükənin daha da artdığını göstərir. Əlbəttə ki, hər bir dövlət öz vətəndaşının xəstəliyə yoluxmasının qarşısının alınması üçün məqsədli tədbirlər görür. “Misilsiz tədbirlər görülür, sərhədlər bağlanır, dövlətlər təcrid olunur” deyən Birinci vitse-prezident ümumi səylərimizin mütləq nəticə verəcəyinə inandığını və ümid etdiyini bildirib: “Bəşəriyyət bu çağırışın öhdəsindən gələcək və daha da güclənəcək. Həmçinin, ümid edirəm ki, biz sadə həqiqətlər barədə düşünüb onları yenidən dərk etməyə çalışacağıq. Biz biri-birimizdən fərqliyik, amma evimiz birdir. Özgə dərd olmur. Ağrı və iztirablar sərhəd tanımır. Virusa qarşı immunitet, vaksin tapıldıqdan sonra yaranacaq. Biganəliyə qarşı immuniteti isə, hər kəs özündə formalaşdırmalıdır”.

## “TƏHLÜKƏSİZLİK TƏDBİRLƏRİNƏ CİDDİ RİAYƏT EDİLMƏSİ, ŞƏXSİ MƏSULİYYƏT VƏ İNTİZAMLILIQ ÖZÜNÜZÜ VƏ ƏTRAFINIZDAKILARI QORUMAĞIN ƏSAS ŞƏRTLƏRİDİR”

Koronavirusa qarşı xüsusi müalicə vasitəsi və ya vaksin olmadığı üçün yoluxmuş əksər insanlar bu xəstəlikdən özləri sağalır. Koronavirus simptomları olan şəxslər vaxt itirmədən həkimə müraciət etməlidir. Bir çox hallarda koronavirusa yoluxmuş insanlarda xəstəliyin simptomları özünü göstərmir və onlar daşıyıcı rolunu oynayırlar. Ona görə də, hər bir insanın dezinfeksiya qaydalarına riayət etməsi vacibdir. Ölkəmizdə bütün qüvvələr virusun qarşısının alınmasına səfərbər olunub. Əbəs deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı “COVID-19”-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirib. “Biz ilk gündən Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edir və bu qurumun tövsiyələrinə çox ciddi yanaşırıq” deyən Mehriban xanım Əliyeva bildirib ki, epidemiyanın sürətlə yayılması, onun pandemiyaya çevrilməsi bu xəstəliklə mübarizədə vahid strategiya və taktikanın hazırlanmasını çətinləşdirir: “Virusun və xəstəliyin tədqiqatı onlara qarşı mübarizə ilə eyni vaxtda aparılır. Buna görə də, bir çox tövsiyələr situativ xarakter daşıyır və məlumat bazası genişləndikcə, dəyişir. Aydın olan odur ki, təhlükəsizlik tədbirlərinə ciddi riayət edilməsi, şəxsi məsuliyyət və intizamlılıq özünüzü və ətrafınızdakıları qorumağın əsas şərtləridir”.

Mehriban xanım Əliyeva bütün həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağırıb: “Biz, azərbaycanlılar həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşmışıq, onları həssaslıqla qorumuşuq. Əminəm ki, üzləşdiyimiz bu vəziyyətdə biz daha diqqətli olacağıq. Bu gün laqeydlik yolverilməzdir. Bu gün infeksiya ilə mübarizədə ön cəbhədə olanların, Azərbaycan vətəndaşlarının sağlamlığını və həyatını qorumaq üçün bütün lazımi tədbirləri görənlərin hər birinə - həkimlərə, tibbi personala, müxtəlif dövlət qurumlarının əməkdaşlarına xüsusi minnətdarlığımı bildirmək istəyirəm...Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Pakistanın aparıcı beyin mərkəzinin rəhbəri işğal olunmuş ərazilərimizdə keçiriləcək qanunsuz seçkiləri pisləyib



Pakistanın aparıcı beyin mərkəzi olan Qlobal və Strateji Araşdırmalar Mərkəzinin (CGSS) icraçı direktoru Xalid Taimur Akram martın 31-də Azərbaycanın işğal olunmuş ərazilərində keçirilməsi planlaşdırılan qanunsuz seçkiləri pisləyən bəyanat yayıb. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Xalid Taimur Akram Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının ölkəmizin təhlükəsizliyi üçün nəzərəçarpan təhdidə səbəb olduğunu deyib.

O qeyd edib: “Azərbaycan regionda böyük əhəmiyyətə malik ölkədir. Buna görə də beynəlxalq ictimaiyyət tərəfindən kifayət qədər diqqət və vasitəçilik səylərinin göstərilməməsi bu iki ölkə arasında münaqişənin kəskinləşməsinə, bununla da Cənubi Qafqaz regionunda vəziyyətin sabitləşməməsinə səbəb ola bilər”.

Mərkəzin rəhbəri Ermənistanı və onun müttəfiqlərini Dağlıq Qarabağda xaos yaratdıqları, minlərlə azərbaycanlının öz evlərindən didərgin düşməsinə səbəb olduqları üçün sərt tənqid edib. Bildirib ki, Dağlıq Qarabağ Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməmişdən əvvəl Azərbaycanın çox yaxşı inkişaf etmiş regionlarından biri olub, lakin indi burada vəziyyət durğundur. “Qanunsuz nəzarət region üçün heç bir fayda verməyib. Mən beynəlxalq medianı Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən işğalına və çox sayda azərbaycanlının məcburi köçkün vəziyyətinə düşməsinə diqqət ayırmağa çağıram. Azərbaycan xalqının təhlükəsizliyinin və suverenliyinin təmin edilməsi üçün Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərdən tez bir zamanda çıxarılmalıdır”, - deyə o əlavə edib.

# Ünvanlı yardım üçün müraciət edən ailənin kommunal və rabitə xərcləri üçün müəyyən olunan limit artırılacaq

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, ünvanlı dövlət sosial yardımı proqramının əhatə dairəsinin genişləndirilməsi üçün bu il də müvafiq işlər aparılacaq. Proqramın genişləndirilməsi üçün vacib məsələlərdən biri sosial yardım sisteminin aztəminatlı ailələrə əlçatanlığının artırılmasıdır.




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, bu məqsədlə “Ünvanlı dövlət sosial yardımı haqqında” Qanunda və sosial yardımın alınması üçün müraciət edilməsi, təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi ilə bağlı Qaydalarda dəyişikliklər layihələri hazırlanıb. Belə ki, hazırkı qanunvericiliyə görə ailənin adambaşına düşən kommunal və rabitə xərclərinin cəminin orta aylıq məbləği ölkə üzrə təsdiq olunmuş yaşayış minimumunun 10 faizindən çox olduqda ünvanlı sosial yardımın təyin olunmasından elektron sistem tərəfindən avtomatik imtina edilir. Yeni layihələrdə həmin limitin artırılması yer alıb.

Bununla bərabər, layihələrdə ailə tərkibində baş vermiş dəyişikliyə və buna görə məlumat verilməməsinə görə yardım təyinatından imtina edilməməsi və ya ödənilən yardımın dayandırılmaması, ailənin götürdüyü kreditin onun gəliri kimi nəzərə alınmaması və ailənin sosial yardım hüququna maneə yaratmaması və s. əksini tapır. Həmçinin ünvanlı yardım üçün müraciət zamanı qeyd edilməsi tələb olunan məlumatların sayının azaldılması, müvafiq məlumatların aidiyyəti qurumların elektron informasiya bazalarından əldə edilməsi nəzərdə tutulub.

Qeyd edək ki, ünvanlı sosial yardım alan ailələrin sayı 2019-cu ildə 40 mindən 72 minə çatıb. Ötən il bu yardımın alınması üçün kriteriyaların (həmçinin torpaq pay mülkiyyəti ilə bağlı şərtin) yumşaldılması ilə bağlı müəyyən işlər nəticəsində əlavə 7 min ailə sosial ünvanlı sosial yardım proqramına daxil olub. Ümumilikdə bu il ünvanlı sosial yardım alan ailələrin sayının 85-90 minə çatdırılması nəzərdə tutulub.



# Azərbaycan və Türkiyə münasibətləri dinamik inkişafdadır

*Prezident İlham Əliyev: "Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII toplantısı bir daha onu göstərdi ki, bizim fikirlərimiz bütün məsələlərdə birdir, niyyətimiz, amalımız da birdir"*

***Qarşılıqlı etimad, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə daha da möhkəmlənir. Ulu Öndər Heydər Əliyevin bir millət, iki dövlət olaraq xarakterizə etdiyi Azərbaycan-Türkiyə dövlətləri arasındakı münasibətləri bu gün həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatıb, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçib. Azərbaycan ilə Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Fevralın 25-də keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında gələcək əməkdaşlıq məqsədi ilə çox önəmli addımlar atılıb.***

Türkiyə ilə Azərbaycan arasında siyasi, hərbi, iqtisadi, ticari, mədəni sahələrdə olan əməkdaşlıq münasibətləri müzakirə edilib. Azərbaycan Prezidenti İlham Əliyev çıxışında dövlətlər arasındakı əlaqələrin strateji xarakter daşıdığını, dostluq-qardaşlıq üzərində qurulduğun bildirib. "Keçən il əlaqələrimiz üçün çox uğurlu olubdur"- deyən Prezident İlham Əliyev Türkiyə Prezidenti ilə bir neçə dəfə görüşdüklərini diqqətə çatdırıb: "Siyasi, iqtisadi, enerji, nəqliyyat - bütün sahələrdə çox böyük nailiyyətlər əldə edilib. Onların arasında əlbəttə ki, TANAP layihəsinin Avropa sərhədinə çatdırılmasını və digər layihələri qeyd etmək olar".

Azərbaycan-Türkiyə Strateji Əməkdaşlıq Şurasının növbəti toplantısının əlaqələrin gələcək inkişafı üçün çox önəmli olacağını diqqət çatdıran dövlət başçısı bir çox məsələlərin müzakirəsi və qəbul ediləcək qərarlar, eyni zamanda, imzalanacaq ikitərəfli sənədlərin mövcud əlaqələrin daha da gücləndirəcəyini bildirib.

## "BİZ BÜTÜN BEYNƏLXALQ TƏŞKİLATLAR ÇƏRÇİVƏSİNDƏ VAHİD MÖVQEDƏN ÇIXIŞ EDİRİK"

Müasir dövrümüzdə Türkiyə və Azərbaycanın təşəbbüsü ilə ölkələrimiz və bütövlükdə bölgə üçün önəmli bir sıra layihələr həyata keçirilir. Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması bu münasibətlərin daha dərinləşməsinin təzahürüdür. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının səkkizinci iclasının Protokolu"nun imzalanıb. Dövlət üçün önəmli qərarlar qəbul edilib və sənədlər imzalanıb. Müxtəlif sahələri əhatə edən əməkdaşlıq üzərində qurulan bu sənədlər Azərbaycan ilə Türkiyə arasında olan əlaqələrin daha da inkişafına səbəb olacaq.

"Biz bütün beynəlxalq təşkilatlar çərçivəsində vahid mövqedən çıxış edirik. Bir-birimizə arxayıq, bir-birimizə dayağıq. BMT, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası və digər təşkilatlarda biz fəal işbirliyi apararaq bir-birimizin gücünü artırırıq" - deyə dövlət başçısı bildirib.

## "BÜTÜN BEYNƏLXALQ ARENALARDA TÜRKİYƏ HƏR ZAMAN AZƏRBAYCANIN, AZƏRBAYCAN XALQININ YANINDADIR"

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatla çıxış ediblər. Azərbaycan Prezidenti "Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII toplantısı bir daha onu göstərdi ki, bizim fikirlərimiz bütün məsələlərdə birdir, niyyətimiz, amalımız da birdir" - deyib.

Bildiyimiz kimi, Türkiyə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində daim Azərbaycana böyük dəstək göstərİB VƏ dünya miqyasında bu məsələ ilə bağlı Azərbaycanla eyni mövqedən çıxış edib. Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal altında saxlanmasına hər zaman etiraz bildirən Türkiyə hazırda Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində xüsusi fəallıq göstərir, bu məsələdə ölkəmizin ədalətli mövqeyinə tam dəstək verir. "Bütün beynəlxalq arenalarda Türkiyə hər zaman Azərbaycanın, Azərbaycan xalqının yanındadır" - deyən dövlət başçısı Türkiyənin dünya miqyasında Azərbaycana ən böyük dəstək verən ölkə olduğunu bilddirib. Təbii ki, bu münasibətlər qarşılıqlıdır: "Bütün məsələlərdə, beynəlxalq arenalarda Azərbaycan daim Türkiyənin haqq işini dəstəkləyir. Elə bir məsələ olmayıb və əminəm olmayacaq ki, Azərbaycan öz dəstəyini Türkiyəyə göstərməsin. Hazırda bölgədə gedən bütün proseslərdə birmənalı şəkildə Azərbaycan dövləti və Azərbaycan xalqı Türkiyə dövlətinin və xalqının yanındadır. Bizim birliyimiz əbədidir və təbii ki, biz öz gələcəyimizi bu möhkəm təməl üzərində qururuq. Ona görə, Strateji Əməkdaşlıq Şurasının bugünkü 8-ci toplantısı xüsusi əhəmiyyətə malik olan bir məsələdir. Çünki dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr bu gün öz gələcək işbirliyi, əməkdaşlığı haqqında çox ciddi qərarlar qəbul etmişlər".

## İKİ ÖLKƏ ARASINDA BEYNƏLXALQ ƏHƏMİYYƏTLİ REGİONAL LAYİHƏLƏR HƏYATA KEÇİRİLİB

İkitərəfli iqtisadi münasibətlərin hər tərəfli inkişafı baxımından, həyata keçirilən tədbirlər, imzalanan müqavilələr xüsusi mərhələnin əsasını qoymuşdur. Ölkəmizin regional iqtisadi əməkdaşlığa verdiyi böyük əhəmiyyət və trans-regional infrastruktur layihələrində fəal iştirakının nəticəsi olaraq, iki ölkə arasında beynəlxalq əhəmiyyətli bir sıra regional layihələr həyata keçirilib. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və s. layihələri bu baxımdan ən yaxşı nümunələrdir. İki ölkənin təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli layihə TANAP Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi və təchizatın diversifikasiyası baxımından böyük önəm daşıyır. "TANAP Cənub Qaz Dəhlizinin əsas hissəsidir və əminəm ki, bu ilin sonuna qədər Cənub Qaz Dəhlizi tam istismara veriləcək" - bildirən Cənab Prezident bunun son layihəsi - TAP-ın icrasının 92 faizə çatdığını qeyd edib.

Bu gün ölkəmizdə 4 minə yaxın Türkiyə şirkəti fəaliyyətdədir. "Türkiyə şirkətləri 300-dən çox layihədə 16 milyard dollar həcmində iş görmüşlər və bu parametrlərə görə Türkiyə birinci yerdədir" - qeyd edən Cənab Prezident qarşılıqlı sərmayə qoyuluşunun da çox yüksək səviyyədə olduğunu bildirib: "Bu günə qədər Azərbaycan Türkiyə iqtisadiyyatına 18 milyard, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12,5 milyard dollar sərmayə qoyub. Bu, böyük ölçüdə sərmayənin qoyuluşu bir daha bizim qardaşlığımızı təsdiqləyir".

## "AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA YEGANƏ QURU SƏRHƏDİ OLAN NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İNKİŞAFI, RİFAH HALI DAHA DA YAXŞILAŞACAQDIR"

"Müdafiə sahəsində, nəqliyyat sahəsində də böyük nailiyyətlər əldə olunub. Birlikdə həyata keçirdiyimiz Bakı-Tbilisi-Qars dəmir yolu uğurla fəaliyyət göstərir. Bu yolun gələcək fəaliyyəti haqqında önəmli sənəd imzalanıb ki, bu da Qars-Naxçıvan dəmir yolunun tikintisinə dair Anlaşma Memorandumudur". Bunun xüsusi əhəmiyyət daşıyan məsələ olduğunu bildirən dövlət başçısı onu da qeyd edib ki, Ermənistanın işğalçı siyasətinə görə, Naxçıvan uzun illərdir, demək olar ki, blokada, yəni mühasirə şəraitində yaşayır: "Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılması böyük problemdir. Qars-İğdır-Naxçıvan dəmir yolunun tikintisi bu problemi aradan qaldıracaq və beləliklə, Azərbaycanla Türkiyə arasında yeganə quru sərhədi olan Naxçıvan Muxtar Respublikasının inkişafı, rifah halı daha da yaxşılaşacaqdır. Bu anlaşmaya görə minnətdaram. Eyni zamanda, Naxçıvanın gələcək fəaliyyəti, uğurlu inkişafı haqqında da fikir mübadiləsi aparıldı. Üç il bundan əvvəl Naxçıvandan Türkiyəyə ixrac ediləbiləcək malların siyahısı da tutuldu. Buna görə də biz minnətdarıq və əminəm ki, gələcəkdə Naxçıvandan Türkiyəyə ixrac əməliyyatlarının sayı artacaqdır".

Keçirilən görüşlər, həyata keçirilən tədbirlər iki dövlət arasında əlaqələrin gücləndirilməsinə təkan verməklə yanaşı, Azərbaycanın rifahı və gələcək inkişafında önəmlidir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Almaniya portalı ölkəmizdə keçirilmiş parlament seçkiləri barədə məqalə yayıb



Almaniyanın "ostexperte.de" internet portalında "Azərbaycan seçkilərdən sonra. İqtisadiyyat və vətəndaş cəmiyyətinin gücləndirilməsi perspektivləri" sərlövhəli məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, Urs Unkauf və Matthias Dornfeldin müəllifliyi ilə dərc olunan yazıda fevralın 9-da Azərbaycanda keçirilmiş parlament seçkilərindən bəhs edilir.

Məqalədə seçkilərdə 19 partiyadan olan 1300-dən çox namizədin 125 mandat uğrunda mübarizə apardığı, 400-dən çox beynəlxalq, 55 mindən artıq yerli müşahidəçinin seçki prosesini müşahidə etdiyi bildirilir. Qeyd olunur ki, namizədlər arasında gənclər və xanımlar, eləcə də müxtəlif etnik və dini qrupları təmsil edən şəxslər çoxluq təşkil edib. Müəlliflər yeni parlamentə seçilən gənc deputatların ölkədə aparılan islahatlar prosesinə fəal dəstək verəcəklərinə inamlarını ifadə ediblər.

Həmçinin diqqətə çatdırılıb ki, 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan Qərb standartlarına uyğun seçki keçirmək istiqamətində mühüm addımlar atıb və buna böyük dərəcədə nail olub.

Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal altında saxlanmasına diqqət çəkən müəlliflər 1992-ci ildə törədilən Xocalı faciəsinin artıq dünyanın 10-dan çox ölkəsi tərəfindən soyqırımı kimi tanındığını vurğulayblar.

Bir çox ölkədən fərqli olaraq Azərbaycanda sınaqoqların təhlükəsizliyinin polis tərəfindən təmin olunmasına ehtiyac duyulmadığını qeyd edən müəlliflər bu mühüm amilin beynəlxalq mətbuatda lazımi səviyyədə işıqlandırılmamasından təəssüflərini ifadə ediblər.

Məqalədə 9 fevral seçkilərinin müasir, çoxmədəniyyətli və dünyəvi Azərbaycan cəmiyyətində demokratik ənənələrin təşəkkül tapması istiqamətində mühüm addım olduğu vurğulanır. Azərbaycanın inkişaf edən iqtisadiyyata malik ölkə və enerji resurslarının Avropaya nəqlində etibarlı tərəfdaş olduğu xüsusilə qeyd olunur. Ölkədə yoxsulluğun cəmi 4,7 faiz, əhalinin internetə çıxışının isə 80 faiz olmasına diqqət çəkilir, eləcə də Azərbaycanın Dünya Bankının "Doing Business" hesabatında rəqabətqabiliyyətliliyə görə 190 ölkə arasına 34-cü yerdə qərarlaşdığı diqqətə çatdırılır.

# Yeni Azərbaycan Partiyası koronavirusa qarşı mübarizəyə qoşulur



Dünyanı ciddi təşvişə salan, minlərlə insanın ölümünə səbəb olan koronavirus pandemiyasına qarşı mübarizə Azərbaycan hökumətinin fəaliyyətində ön plana çıxıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında Nazirlər Kabinetinin yanında yaradılmış Operativ qərargah koronavirusun yayılmasının qarşısının alınması istiqamətində gərgin iş rejimində səmərəli fəaliyyət göstərir. Epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanılır, virusa yoluxma hallarının qarşısının alınması, zəruri profilaktik tədbirlərin görülməsi ilə əlaqədar vacib addımlar atılır, əhaliyə lazımi məlumat və tövsiyyələr verilir. Təcrübə göstərir ki, bütün cəmiyyət və ayrılıqda hər bir vətəndaş virusa yoluxmaların qarşısının alınmasında mühüm rol oynaya bilər və oynamalıdır. Bununla əlaqədar olaraq, Yeni Azərbaycan Partiyası özünün çoxsaylı üzvlərinin təkliflərini nəzərə alaraq koronavirus xəstəliyinə qarşı mübarizədə ehtiyacı olan vətəndaşlara Nazirlər Kabinetinin yanında Operativ qərargahın tövsiyyələrinin yerinə yetirilməsi işində mümkün köməkliyin göstərilməsi, zəruri məlumatların çatdırılması, maarifləndirmə işlərinin aparılması məqsədilə təşkilatın bütün strukturlarını səfərbər etmişdir.

Eyni zamanda Yeni Azərbaycan Partiyasının gəncləri sosial şəbəkələr üzərindən Operativ qərargahın tövsiyyələrinin əhali arasında yayılmasına köməklik göstərmək məqsədilə aksiyalar təşkil etməyi qərara almışdır.

# İsa Həbibbəyli: "COVİD-19"-la mübarizədə bütün gücümüzü səfərbər etməliyik"



***"Bu gün kimsə şübhə etməməlidir ki, Azərbaycanda koronavirus infeksiyası ilə bağlı vəziyyət ciddi nəzarət altındadır və hökumət tələb olunan bütün müvafiq tədbirlərini görür, önləyici planlarını realizə edir". Bu fikirləri "SƏS"ə AMEA-nın vitse-prezidenti, millət vəkili İsa Həbibbəyli bildirib.***

Onun sözlərinə görə, infeksiya yayan virusun ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində qabaqlayıcı və mübarizə xarakterli tədbirlər bundan sonra da, davam etdiriləcək. SİTAT: "Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini və beynəlxalq təcrübəni nəzərə alan, əhalinin sağlamlığının etibarlı qorunmasını daim diqqətdə saxlayan Azərbaycan hökuməti pandemiya şəklinə alan və qloballaşan problemlə mübarizə çərçivəsində reallaşdırılan tədbirlərin əhatə dairəsini daha da genişləndirib, müəyyən olunmuş qərarlar qəbul edib. Ümumiyyətlə, ölkədə bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması, dövlət və özəl sektora aid qurumlar, vətəndaşlar üçün xüsusi qaydaların elan olunması və onlara ciddi riayət edilməsi üçün nəzarət mexanizminin formalaşdırılması və tətbiqinin qərara alınması da, bu baxımdan, çox mühümdür".

Millət vəkili qeyd edib ki, dünyanın koronavirus bəlası ilə üz-üzə qaldığı bir vaxtda, yoluxucu infeksiyanın Azərbaycan daxilində yayılmasının qarşısının alınması və yoluxmuş insanların müalicəsi istiqamətində hökumət tərəfindən bütün səviyyələrdə zəruri tədbirlər görülür: "Ona görə də, hesab edirəm ki, hər bir vətəndaş bu gerçəkliyi dəstəkləməlidir. Yeni nəzərdən qaçmamalıdır ki, vətəndaşlarımızın iştirakı və dəstəyi olmadan bu tədbirlərin müsbət məcraya yönəlməsi istənilən nəticəni verə bilməz".

İsa Həbibbəyli onu da bildirib ki, "COVİD-19" son günlər Avropa ölkələrində çox sürətlə yayılır və yoluxma halları artmaqdadır: "Bu səbəbdən də, bir sıra Avropa dövlətlərində ali təhsil müəssisələri bağlanıb, ciddi karantin rejimi tətbiq olunur. Ancaq Azərbaycanda zamanında və vaxtında görülən qabaqlayıcı tədbirlər, ölkəmizdə virusun yayılması prosesini zəiflədib. Bir daha təkrar edir və düşünürəm ki, mübarizə üsulunda əsas məsələlərdən biri bu tədbirlərə, birmənalı, ictimai dəstəyin göstərilməsidir. Həmin məsələ ümummilli olmalıdır ki, ona qalib gələk. Ümumiyyətlə, tədbirlərin effektivliyini maksimum dərəcədə təmin etmək üçün vətəndaşların iştirakı və dəstəyi lazımdır. Eyni zamanda, əhali sosial şəbəkələrdə yayılan qeyri-ciddi məlumatlara deyil, rəsmi mənbələrin informasiyasına inanmalıdır. Əbəs deyil ki, Milli Məclisin son toplantısında müəyyən cəzaların sərtləşdirilməsi ilə bağlı da qərar qəbul olundu. Artıq bizlərin hər biri işindən, ranqından və vəzifəsindən asılı olmayaraq, "COVİD-19"-la mübarizədə bütün gücümüzü səfərbər etməliyik".

**RƏFİQƏ HÜSEYNOVA**

# "Mübariz Mənsimov üçün insanların aksiyalara çağırılması doğru deyil"



Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının (YAP) İcra katibinin müavini Siyavuş Novruzov Türkiyədə həbs olunan azərbaycanlı iş adamı Mübariz Mənsimovun azad olunması üçün onun Azərbaycandakı qohumlarının insanları kütləvi aksiyalara çağırmasını pisləyib. SİA xəbər verir ki, bu barədə millət vəkili açıqlama verib.

S.Novruzov açıqlamasında bildirib ki, Mübariz Mənsimovun azad olunması üçün insanların kütləvi aksiyalara çağırılması heç bir halda doğru deyil: "Mübariz Mənsimovun qohumları çağırış edir ki, camaat kütləvi aksiyalara çıxsın, mitinqlər keçirsin. O, Nelson Mandeladır, Martin Lüter Kinqdir və yaxud Qarabağ, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparıb, dövlət çevrilişlərinin qarşısının alınmasında iştirak edib? Camaat çıxıb onu niyə müdafiə etsin? Görünür, Mübariz Mənsimov hansısa qanunazidd əməl törədib və buna görə də onu həbs ediblər. Özünə arxayındırsa, qoy gedib məhkəmə qarşısında cavab versin. Buna görə insanları kütləvi aksiyalara çağırmaq, sabitliyi pozmağa gərək yoxdur.

Bilirsiniz ki, bu gün dünyada koronavirus təhlükəsi ciddi təhdidə çevrilib və Azərbaycan da virusun yayılmasının qarşısının alınması üçün ciddi tədbirlər görür, eyni zamanda insanların kütləvi tədbirlərdən çəkinməsi ilə bağlı çağırışlar edilib. Belə bir vəziyyətdə Mübariz Mənsimovun qohumları insanların həyatını təhlükəyə ataraq onları qanunsuz olaraq kütləvi aksiyalara çağırır. Hesab edirəm ki, insanlar belə çağırışlara qoşulmamalıdırlar, hazırda bizə bu, lazım deyil. Bu gün bizim əsas məqsədimiz insanları virusa yoluxmaqdan qorumaqdır".

# Parlament işçiləri üçün məhdudiyyət müəyyənləşdirildi



Milli Məclis Aparatının və İşlər İdarəsinin əməkdaşları üçün məhdudiyyət müəyyənləşdirilib. Milli Məclisin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, bu, Parlamentin Sədri Sahibə Qafarova Koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizə ilə əlaqədar Milli Məclisdə həyata keçirilməsi zəruri hesab olunan tədbirlər haqqında sərəncamında əksini tapıb.

Sərəncama əsasən, Milli Məclis Aparatının və İşlər İdarəsinin əməkdaşları iş günü ərzində xüsusi ehtiyac olmadan iş otağını tərk etməməli, zərurət olmadan digər şəxslərlə təmasda olmamalıdırlar.

# "Novruz yaranış, oyanış və yeniləşmə bayramıdır"



*AMEA-nın Folklor İnstututunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru Ramazan Qafarlının yap.org.az-a müsahibəsi*

***- Ramazan müəllim, qarşıdan xalqımızın ən gözəl bayramlarından biri olan Novruz gəlir. Folklorşünas alim olaraq bu bayramın tarixi haqqında fikirlərinizi bilmək istərdik...***

- Qeyd edim ki, qədim türklər təbiətlə bağlanan bayramlara xüsusi önəm verirdilər. İlk olaraq işığın mənbəyinə - günəşə, aya, ulduzlara tapınan əcdadlarımız bütün zamanlarda başını uca tutmuş, həmişə ümidini göylərə dikmiş, təsəllisini göylərdən almış və əllərini göyə qaldırıb göy üzündən pənah diləmişlər. İşıq - istilik - canlılıq Xeyrin, qaranlıq - soyuq - ölüm isə Şərin əlamətləri sayılmışdır. Əsas tapınaqları təbiət və onun hadisələri olmuşdur. Təbiətin bir üzünün ağlığı (işıqlılığı), digərinin qaralığı (qaranlıqlığı), bir çağının istiliyi, o birinin soyuqluğu də Xeyrə, Şərə yozulmuşdur. Xeyirin zamanı yazın gəlişi ilə başlayır.

Göydən düşən işığın, nurun bəşər oğlunun doğuşunun əzəlində, körpəliyində təfəkküründə, ilkin dünyagörüşündə açdığı izlər o qədər təsirli və dərin olmuşdur ki, minilliklər, uzun əsrlər ötüb-keçsə də, unudulmamış, adət-ənənələrin, mədəniyyət amillərinin hər birinin mayasına hopmuşdur. Lap başlanğıcdan odun kəşfi ilə əbədiləşdirilmiş və mərasimləşərək tonqalla rəmzləşdirilmişdir. Göyə məxsus işığın, istiliyin yerdə nişanəsi əvvəl mağaralardakı, sonralar isə çadır-otaqlardakı ocaq idi. İnsanların ocaq başına toplaşması dünyanın əbədi işığından içəriyə istilik, nur çəkməyə bərabər tutulurdu. Və bəşər oğlunun dünyabaxışı, əqidəsi dəyişdikcə həmin işığın da məğzi, məna tutumu genişlənmiş, nəhayət, Vahid yaradıcının Nuruna qovuşmaq şəklində kodlaşmışdır. İlahi İşığın, istiliyin - İlaxır - Novruz bayramının təməli insanın təbiətə tapınmasında qoyulsa da, ocağın vətənləşməsi, yurdlaşması, övladla əlaqələnməsi sonralar əcdad kultunun əsas amili kimi yaddaşlara hopması ilə nəticələnmişdi. Əski Türk təqviminin ilk ayının adının "Ocaq" adlandırılması məhz bu inamla bağlıdır.

"Novruz bayramı" ensiklopediyasında deyilir ki, Novruz - ilin yeni, başlanğıc günü deməkdir. Günəş təqviminə əsaslanan astronomik yazın - baharın ilk günüdür. Dini və dünyəvi baxışlarından, dünyagörüşündən asılı olmayaraq, dünyanın bir çox xalqı Novruzu yeni həyatın canlandığı ilk gün kimi qeyd edir. Azərbaycanın Rusiya tərəfindən işğalına (1813, 1828) qədər ölkəmizdə təzə il martın 21-dən başlanırmış. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) zamanında da yeni ilin Novruz bayramından başlanması haqqında qərar verilmişdir. 1920-ci il bolşevik Rusiyası işğalı yeni ilin Novruz bayramından başlanmasını yasaq etmişdir.

Novruz bayramı Avrasiya materikində və Şimali Afrikada Sibirdən Ön Asiyaya, Misirə və digər Şimali Afrika ölkələrindəki "Novruz" topluluqlarına, Asiyada Saxa-Yakutiyadan Avropada Balkanlara, Krıma, Moldovaya, Çindən - Uyğurustandan Şimali Rusiya türk dövlətlərinə, onlardan Cənub-Şərqi Asiya ölkələrinə qədər çox nəhəng siyasi coğrafiyada yayılmışdır. Bütün Avrasiyada Çindən İspaniyaya, Sibirdən Finlandiyaya, Şimali Afrika ölkələrinə yayılmış türk xalqlarının öz dövlətlərində və onların yaşadıqları digər dövlətlərdə, İran, Əfqanıstan, Pakistan, Tacikistan, İraq, Misir və digər ərəb dövlətlərində rəsmi və qeyri-rəsmi olaraq qeyd olunur.

Novruz bayramının etnik-milli və etnolinqvistik coğrafiyasına gəlincə, Novruz bayramı, əsasən, üç böyük etnosa: türk, hind-Avropa və sami etnoslarına aid olan xalqların mədəniyyətlərini və dillərini bir kontekstdə birləşdirir. Bu bayram rəsmi və qeyri rəsmi olaraq azərbaycanlılar, türklər, qazaxlar, türkmənlər, qırğızlar, özbəklər, qaraqalpaklar, krım-tatarlar, kazan-tatarlar, başqırdlar, saxalar, yakutlar, şorlar, teleutlar, xakaslar, altaylılar, noqaylar, qaraimlər, qaraçaylar, uyğurlar, çuvaşlar, qarapapaq-tərəkəmələr, qaqauzlar, Dağıstanın bəzi iber-qafqazdilli xalqları, çeçenlər, farslar, giləklər, taciklər, əfqanlar, puştunlar, pakistanlılar, ərəblər, kürdlər və s. xalqlar arasında yayılmışdır. Novruz bayramı müxtəlif etnos və xalqları vahid mədəniyyət fenomeni ətrafında birləşdirməklə xalqlararası harmoniya modeli kimi çıxış edir.

***- Novruz bayramının əsas özəllikləri nədən ibarətdir?***

- Qeyd edim ki, Novruz bayramı dünyanın Asiya, Avropa və Afrika kimi üç böyük qitəsində müxtəlif etnosları, xalqları, etnik qrupları, dövlətləri, siyasi quruluşları, ideologiyaları, tarixi və müasir mədəniyyətləri, səmavi və qeyri-səmavi dinləri, adət-ənənələri, dil ailələrini, mədəni arealları, insanlığın keçmişi, bugünü və gələcəyini biri-biri ilə birləşdirən, onlar arasında sosial, siyasi, mədəni, psixoloji harmoniya və sülhü bərqərar edən fenomenal mədəniyyət hadisəsidir.Novruz bayramı öz tarixi-mədəni kökləri etibarilə onu dünən və bu gün qeyd edən xalqların bayramı olmaqla yanaşı, həm də öz teokosmik-ümumbəşəri mahiyyəti baxımından bütün dünyada insanlığın yenilənmə və sülh bayramıdır.

Novruz bayramı özünün ritual-mifoloji strukturuna görə təqvim bayramıdır. Miladi təqvimi ilə mart ayının müxtəlif günlərinə (əsasən 21 mart) təsadüf etməklə qışın, köhnə ilin qurtarmasını, yazın, yeni ilin gəlişini bildirir. Bu bayramın funksional strukturunun əsasında təbiətin zamanla dəyişməsi (qışın yazla əvəz olunması) ritmi durur. İnsan təbiətin üzvi struktur elementi kimi öz tarixinin mifoloji-kosmoqonik başlanğıc nöqtəsindən təbiətin bu teokosmik-sinergetik ritminə köklənmiş, onu "Novruz" - "Yeni gün" adlandıraraq bütün tarixi boyunca həmin ritmlə kosmoloji harmoniyada yaşamışdır.

Bu bayramın konseptual strukturunun əsasında bütün varlıq aləminin (insanın, canlı və cansız təbiətin) yaradılması ideyası durur. Bütövlükdə yenidən yaradılmanı - kosmoqoniyanı özündə ehtiva edən bu bayram varlığın bütün ünsürlərinin (ilk insan, ilk predmet, ilk zaman), ilkin stixiyaların necə meydana çıxması haqqındakı ilkin mifoloji təsəvvürləri təcəssüm etdirir. Bu bayram bütün sonrakı tarixi-mədəni transformasiya, modifikasiya, şəkil və forma dəyişmələrinə baxmayaraq, mifogenezi (mifoloji-kosmoqonik başlanğıcını - mənşəyini) simvolik-metaforik strukturlar səviyyəsində qorumaqda davam edir.

***- Bəs Novruz bayramının fəlsəfi mahiyyəti barədə nə deyə bilərsiniz?***

- Novruz bayramının fəlsəfi mahiyyətinə gəlincə, Novruz bayramı varlığın yenidən yaradılması haqqında ilkin fəlsəfi-mifoloji təsəvvürlərin ritual təcəssümüdür. Bayramın fəlsəfi konsepsiyasına görə məkan və zaman sistemi (kosmoloji kontinuum) müqəddəs (sakral) və adi (profan) olmaqla iki qatdan təşkil olunur. İlk insan (əcdad), onun ilk əşyası, ailəsi, övladları, yaşadığı ilk zaman sakral sferanı, bütün onlardan törəyənlər profan sferanı təşkil edir. Profan həyat yaşayan insanların həyat və yaşam dinamikası ilk əcdadın ilk zamandakı sakral yaşam presedentlərini özündə təkrarlayır. Profan sferanın sakral sfera ilə ünsiyyəti rituallar vasitəsi ilə reallaşır. Müqəddəs dəyərləri özündə təcəssüm etdirən Novruz bayramı insanların həyat və psixologiyasında il ərzində köhnələrək mənfiləşən keyfiyyətləri yeni müqəddəs dəyərlərlə əvəz etməklə insanı və onun dünyasını yenidən yaradır. Bu baxımdan, Novruz bayramı modern fəlsəfi dünyagörüşləri kontekstində etnosistem və onun daxil olduğu digər sistemləri öz içinə alan ekosistemin sinergetik özünütəşkil, autopoyetik özünüyaratma mexanizmi kimi də səciyyələnə bilər.

Novruz bayramının sosial-psixoloji mahiyyəti isə ondan ibarətdir ki, bu bayram onu təşkil edən bütün ünsürlərin sosial-psixoloji harmoniyasında reallaşır. Bayramda təbiət, cəmiyyət və zaman arasında qlobal harmoniyanın yaranması əsas şərtdir. Biri-biri ilə küsülülükdə, ziddiyyətdə, konfliktdə olan insan, qonşu, ailə, kənd və s. etnik vahidlər hökmən barışmalı, onlar arasında sülh yaranmalıdır. İl ərzində cəmiyyətin sosial strukturunda yaranmış bütün disharmoniya Novruz bayramında aradan qaldırılaraq sakral sosial-psixoloji harmoniya ilə əvəz edilir. Həmin harmoniya istisnasız olaraq sosial-siyasi sistemin bütün struktur səviyyələrini əhatə edir. Bu baxımdan, Novruz bayramının sosial-psixoloji əsasında hər cür ziddiyyətləri, konfliktləri aradan qaldıran sülh ideyası durur.

***- Ramazan müəllim, Azərbaycan dövlətinin Novruz bayramının yüksək səviyyədə qeyd edilməsi və təbliğ olunması istiqamətindəki siyasətini necə qiymətləndirirsiniz?***

- Təbii ki, dövlətimiz bu bayrama böyük önəm verir. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə Novruz bayramı milli bayram statusu alıb. Həmin tarixdən Novruz dövlət statuslu bayram kimi qeyd olunur. Hər il xalqımız bu bayramı böyük coşğu ilə qeyd edir. 2009-cu ildə Novruz bayramı aşıq sənəti ilə birlikdə UNESCO-nun qorunan qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Azərbaycan Prezidenti cənab İlham Əliyev hər il Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edir.

Bir daha qeyd etmək istəyirəm ki, Novruz həm bizim dövlət statuslu milli bayramımızdır, həm də ümumbəşəri mahiyyət daşıyan bayramdır. Bu bayramın çox gözəl mənalarından biri ondan ibarətdir ki, Novruz bərabərlik, dostluq və qardaşlıq bayramıdır.

Ümummilli Liderimiz Heydər Əliyevin sözləri ilə desək, "Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub, Azərbaycan xalqının milli ruhunu və yaddaşını, daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyatımıza daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir. Əsrlər boyu Novruz bizim üçün təbiətin və ana torpağın oyanması, baharın gəlişi olmaqla yanaşı, həm də barış və saf niyyətlər bayramı olmuşdur".

Bütövlükdə, Novruz - törəyiş, yaranış, oyanış, yeniləşmə bayramı olaraq dərin köklərə söykənən qədim ənənələri üzə çıxarır və türkün yenilməzliyini, birliyini, işığa, xeyirə meylliliyini bütün dünyaya bir daha əyani şəkildə nümayiş etdirir.

## AZAL daha bir çarter reysi ilə 107 azərbaycanlını ölkəyə çatdırdı



Azərbaycanın Milli aviadaşıyıcısı martın 18-də Azərbaycan vətəndaşlarının Türkiyədən qaytarılması üçün daha bir çarter reysi yerinə yetirib. "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən Trend-ə verilən məlumata görə, aviaşirkət Antalya-Bakı reysi ilə 107 nəfər sərnişini vətənə gətirib. Bu təyyarə ilə Türkiyənin üç şəhəri - Antalya, Alanya və İzmirdə qalmış Azərbaycan vətəndaşları qayıda biliblər.

Xatırladaq ki, daha əvvəl Türkiyədən beş çarter reysi ilə 1098 nəfər Azərbaycan vətəndaşı gətirilib. Azərbaycanın Milli aviadaşıyıcısı həmyerlilərimizin vətənə qaytarılması üçün çarter reyslərini yerinə yetirməyə davam edəcək.

# Dövlət lazımi tədbir görür, əhali də təmkinli olmalıdır

## *Prezident İlham Əliyev: "Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq"*

***Bu gün dünya 21-ci əsrin, bəlkə də, ən böyük problemi ilə amansız mübarizədədir. Artıq pandemiyaya çevrilən koronavirus infeksiyasına qarşı dünyanın bütün ölkələri səfərbər olub. Çinin Uhan şəhərində başlayan koronavirus dalğası Şimali Amerikaya qədər gedib çıxıb. Bu virus heç bir sərhəd tanımır. Məhz bu səbəbdən, koronavirusun yayıldığı bütün ölkələr, maksimum dərəcədə vətəndaşlarının bu virusa az yoluxmasına çalışır, müxtəlif qabaqlayıcı tədbirlər görürlər. Azərbaycan da, nəinki bu sıradan geri qalmır, əksinə qabaqlayıcı tədbirlər silsiləsində əksər ölkələrdən irəlidədir.***



Məlumdur ki, Prezident İlham Əliyevin tapşırığı ilə Nazirlər Kabinetinin nəzdində Operativ Qərargah yaradılıb. Koronavirusla ilə bağlı vətəndaşlar, xüsusən də, KİV mütəmadi məlumatlandırılır. Bütün riskləri nəzərə alan hökumət, artıq bir neçə ölkə ilə yerüstü və hava nəqliyyatı əlaqələri məhdudlaşdırılıb, ölkədə ciddi tədbirlər həyata keçirilir. Prezident tərəfindən qabaqlayıcı tibbi-sanitar tədbirlərin həyata keçirilməsi üçün 10 milyon manat pul ayrılıb. Ümumiyyətlə, Azərbaycan əvvəldən koronavirusla bağlı məsələyə çox ciddi və şəffaf yanaşma ortaya qoydu. Təsadüfi deyil ki, ÜST Azərbaycanı hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün səmərəli tədbirlər həyata keçirən dövlətlərdən biri hesab edir.

### "Azərbaycan bu istiqamətdə (koronavirusa qarşı mübarizə sahəsində) önləyici tədbirlər görüb"

"İndiki şəraitdə əsas vəzifə vaqonların dezinfeksiyasıdır. Bu sahəyə çox böyük diqqət göstərilməlidir. Çünki bütün dünya indi koronavirusdan əziyyət çəkir". Bunu Prezident İlham Əliyev Abşeron dairəvi dəmir yolunun Pirşağı-Görədil-Novxanı-Sumqayıt hissəsinin yenidənqurmadan sonra açılışında deyib. Ölkə başçısı söyləyib ki, Azərbaycan bu istiqamətdə (koronavirusa qarşı mübarizə sahəsində) önləyici tədbirlər görüb: "Məhz ona görə hazırda ölkəmizdə koronavirusun yayılması, o qədər də geniş vüsət almayıb. Ancaq bu, elə bəladır ki, heç bir ölkə özünü tam sığortalanmış hesab edə bilməz. Hətta ən inkişaf etmiş ölkələrdə indi yaşanan böhran göz qabağındadır".

Prezidenti İlham Əliyev bildirib ki, hər bir vətəndaş məsuliyyətli olmalıdır, öz şəxsi gigiyenasına fikir verməlidir: "Eyni zamanda, ictimai işlərlə, ictimai nəqliyyatla məşğul olan qurumlar da bu işləri tam məsuliyyətlə görməlidirlər, tam dezinfeksiya aparılmalıdır ki, yoluxma hallarının sayı çox olmasın. Əlbəttə ki, hazırda bizim sərhədlərimiz bağlıdır. Ancaq yükdaşımalar üçün heç bir ölkə öz sərhədini bağlamayıb. Ona görə yükdaşımalar istiqamətində bizim işlər davam etdiriləcək. Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq".

### Hər kəs özündə sosial məsuliyyət hiss etməlidir

Doğurdan da, bugünkü məqamda ən önəmli məsələlərdən biri də, sosial məsuliyyət məsələsidir. Sirr deyil ki, indiki situasiya təkcə dövlət orqanları qarşısında deyil, hər bir vətəndaş qarşısında ciddi məsuliyyət müəyyənləşdirir. Hamı başa düşməlidir ki, sosial yönündən asılı olmayaraq, atılan müvəqqəti və məcburi addımlar cəmiyyətin sağlamlığı, təhlükəli virusun neqativ təsirlərindən maksimum dərəcədə qorunmaq üçündür.

Bir məqamı da təəssüflə vurğulamaq lazımdır ki, sosial şəbəkələrdə şayiə və dezinformasiya, təşviş doğuran xəbərlər yayanlar da var və belələri haqqında təhlükəsizlik orqanları tərəfindən ciddi tədbirlər görüləcək, görülməlidir də. Belə ki, bu günlərdə bəzi sosial şəbəkələrdə Azərbaycanda ərzaq qıtlığı yaranacağıyla bağlı heç bir əsası olmayan xəbərlərin yayılmasıdır. Amma anlamaq lazımdır ki, koronavirusla bağlı situasiya hökumətin tam nəzarətindədir və bütün atılan addımlar Azərbaycan insanı, onun sağlamlığı və təhlükəsizliyi üçündür!

### Koronavirusun ən çox və ən az yoluxduğu qan qrupları

Koronavirusun ən çox və ən az yoluxduğu qan qrupları məlum olub. Belə ki, ABŞ alimləri bununla bağlı araşdırma aparıb. Koronavirusa yoluxmuş 18-45 yaş arası 2713 nəfər haqqında məlumatlar təhlil edilib. Bundan əlavə, virusun mərkəzi olan Uhan və Şenzen şəhərindəki üç xəstəxanada koronavirusdan ölən 206 nəfərin cəsədi və virusa yoluxmuş 775 insan müayinə edilib. Tədqiqata, həmçinin, yoluxmamış, lakin risk altında olan 3964 Uhan sakini daxil edilib. Müəyyən edilib ki, koronavirusa ən çox - 37,75 % "B" (III) qan qrupu olanlar yoluxur. Ən az yoluxan şəxslər isə 25,80% olmaqla qan qrupu "A" (II) olanlardır.

Bir sözlə, koronavirusla bağlı situasiya hökumətin tam nəzarətindədir. Ola bilsin dövlət xalqın təhlükəsizliyi üçün bir qədər də zəruri və sərt addımlar atsın. Amma onu bilməliyik ki, bütün atılan addımlar Azərbaycan insanı, onun sağlamlığı və təhlükəsizliyi üçündür!

**R.HÜSEYNOVA**

---

### ÜST koronavirusla bağlı göstərdiyi ciddi səylərə görə Azərbaycan hökumətinə minnətdarlıq edir

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məsləhətçisi qismində Azərbaycana səfər etmiş professor Önder Ergönülün "HaberTürk" telekanalına müsahibəsi zamanı verdiyi açıqlama ilə bağlı bəyanat yayıb.

Təşkilatın Azərbaycandakı nümayəndəliyindən AZƏRTAC-a daxil olan bəyanatda bildirir ki, həmin müsahibədəki açıqlamalar Ergönülün şəxsi fikirləridir və ÜST-nin rəsmi mövqeyini əks etdirmir. Bəyanatda deyilir: "ÜST-nin mandatı hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf üçün sahələri müəyyənləşdirmək, COVID-19 təhlükəsinə qarşı cavab tədbirlərinin gücləndirilməsinə dəstək göstərməkdir. ÜST-nin Azərbaycandakı ölkə ofisi, regional ofis və baş qərargahla sıx təmasda olmaqla, hökumətlə kliniki idarəetmə, infeksiyaların qarşısının alınması və nəzarət, eləcə də risk kommunikasiyası kimi önəmli sahələrdə əməkdaşlıq edir.

Ümumdünya Səhiyyə Təşkilatı fürsətdən istifadə edərək, COVID-19-la bağlı milli və beynəlxalq səviyyədə göstərdiyi ciddi səylərə görə Azərbaycan hökumətinə dərin minnətdarlığını bildirir".

# Milli Məclisin Mədəniyyət komitəsi ilk iclasını onlayn sistemlə keçirib

VI çağırış Milli Məclisin Mədəniyyət komitəsi martın 18-də onlayn sistemlə ilk iclasını keçirib. Parlamentin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, komitənin sədri Qənirə Paşayeva ölkədə koronavirusla mübarizə sahəsində görülən işləri yüksək dəyərləndirib, dövlətimizin qaydalarına uyğun olaraq komitənin iclasının bu sistemlə keçirilməsi zərurətinin yarandığını vurğulayıb.

İclasda əvvəlcə komitənin 2020-ci ilin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planı müzakirə olunub. Bildirilib ki, qarşıdakı dövrdə "Kinematoqrafiya haqqında", "Azərbaycan muğam sənətinin qorunması və inkişaf etdirilməsi haqqında", "Yazılı abidələr haqqında", "Kabel şəbəkəsi yayımı haqqında" vacib qanun layihələrinin hazırlanması nəzərdə tutulur. Komitə üzvlərinin sənədlərlə bağlı təklifləri dinlənilib, qanunvericilik işləri planı təsdiq edilib.

Sonra "Milli Məclisin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikası Dövlət bayrağının istifadə qaydaları haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" qanunlarda dəyişiklik edilməsi ilə bağlı məsələyə baxılıb. Bildirilib ki, sənədlərdə təklif olunan dəyişikliklərin məqsədi "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Qanunun icrası ilə əlaqədardır.



İclasın gündəliyinə daxil edilən digər sənədin - "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlara təklif edilən dəyişikliklərin "Reklam haqqında" Qanuna uyğunlaşdırma məqsədilə aparıldığı qeyd edilib. Onlayn müzakirələrin sonunda hər iki sənədin Milli Məclisin plenar iclasına tövsiyə edilməsi barədə qərar qəbul olunub.

# 19 Mart terror aktından 26 il ötür



***Bu gün 1994 - cü il martın 19-da erməni xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında törədiən terror aktından 26 il ötür. Terror nəticəsində, 14 nəfər həlak olub, 49 nəfər yaralanıb. Həlak olanların arasında Azərbaycan Respublikasının xalq artisti Rafiq Babayev də var idi.***

Məhkəmə sübut edib ki, 19 mart saat 13:00-də "20 Yanvar" metrostansiyasında saat mexanizmi ilə təchiz edilmiş əldədüzəlmə partlayıcı qurğu qatarın ilk vaqonunda, qatar dayanarkən partlayır. Terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanıb, separatçı "Sadval" ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilib. Müəyyən olunub ki, "Sadval" separatçı təşkilatının həmin fəalları, 1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olub, bu ölkənin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak edib.

1992-ci ilin aprel-may aylarında 30 nəfər milliyyətcə ləzgi olan Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçib. İstintaq zamanı müəyyənləşdirilib ki, təxribatçılar təlimata uyğun olaraq, "20 Yanvar" stansiyası ilə yanaşı, Bakının "Nizami" kinoteatrında, Respublika Sarayında və Bakı Lampa zavodunda da partlayışlar törətməyi planlaşdırıblar.

"20 Yanvar" metrostansiyasında partlayışın törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilib.

Xatırladaq ki, 1994-cü ilin iyul ayının 3-də Bakı metrosunda ikinci terror aktı oldu. Saat 20:30-da "28 May" metrostansiyasından çıxan, "Gənclik" metrostansiyasının platformasına 500 metr qalmış, elektrik qatarının ikinci vaqonunda partlayış baş verir. Partlayışdan sonra qatarda yanğın baş verir. Terror aktı nəticəsində, 13 nəfər həlak olmuş və 58 nəfər isə yaralanmışdır.

Bu və ya digər erməni terror təşkilatlarının törətdikləri terror aktlarına nəzər salsaq, nələrin baş verdiyinin bir daha şahidinə çevrilərik: 16 sentyabr 1989-cu ildə "Tbilisi-Bakı" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır. 18 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, çoxlu insan tələfatı olmuşdur. 11 iyul 1990-cı ildə "Tərtər-Kəlbəcər" sərnişin avtobusu partladılmış, dinc əhali olan maşın karvanına qarşı terror aksiyası keçirilmiş, nəticədə, 14 nəfər qətlə yetirilmiş, 35 nəfər yaralanmışdır. 10 avqust 1990-cı ildə "Tbilisi-Ağdam" marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayətin təşkilatçıları A.Avanesyan və M.Tatevosyan cinayət məsuliyyətinə cəlb olunmuşlar. 30 noyabr 1990-cı ildə Xankəndi aeroportu yaxınlığında sərnişin avtobusu partladılmış, 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır. Bu terror aktlarını sadaladıqca bitmir. Hər biri neçə-neçə insan ölmünə səbəb olub.

Terror-düşünülmüş insan qətlidir. İnsanların qəsdən məhv edilməsi cəhdidir ki, bütün bu və ya digər hadisələri törədənlər də, məhz ermənilərdir.





***Nəzakət ƏLƏDDİNQIZI***

# İqlim Dəyişikliyi: 2020-ci ilin qışında istilik rekordu qırılıb




Qütblər hələ də soyuqdur, lakin tez isinirlər. Kopernik İqlim Dəyişikliyi Xidmətinin son məlumatlara görə, qeydlər kitabını yeniləməyin vaxtı gəlib. SİA-nın məlumatına görə, keçən ay yalnız dünyada ən isti ikinci fevral ayı deyildi. Dekabrın əvvəlindən fevral ayının sonuna qədər Avropada bütün qış dövründə temperatur 1981-2010-cu illərin orta səviyyəsindən 3,4 dərəcə yüksək olub. Beləliklə, bu qış istilik rekordu qırılıb.

Məlumatlara görə, Antarktidada yayın sonu istilik normadan artıq, Avstraliya daha soyuq, Sibir və Orta Asiyada temperatur fevral ayının orta göstəricisindən xeyli yüksək olub.

Alimlər ilin bu vaxtında Şimal Buzlu Okeanında 850 min kvadrat kilometr daha az dəniz buzunu ölçdülər. Bu, demək olar ki, Fransa və İtaliyanın ümumi səth sahəsinə uyğundur. İsveçin şimalındakı Abisko kəndi, iqlim dəyişikliyi səbəbiylə illik ortalama temperaturun sıfır həddindən aşağı olduğu bir ərazidir. Bölgədəki illik temperatur 1960-cı ildən bəri dəyişir, ancaq tədricən də yüksəlir.

## Ölkədaxili sərnişin qatarlarının hərəkəti dayandırılır




Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı məlumata əsasən, martın 19-da saat 00:00-dan etibarən Sumqayıt və Abşeron istisna olmaqla, ölkənin bütün şəhər və rayonlarından qatar vasitəsilə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna sərnişin daşınması dayandırılır. "Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat katibliyindən AZƏRTAC-a bildirilib ki, martın 18-də Bakıdan yola düşən ölkədaxili bütün qatarlar gündəlik qrafikə uyğun hərəkət edəcək. Martın 18-i və 19-u bölgələrdən çıxan qatarlar isə geriyə sərnişinsiz qayıdacaq.

Martın 19-dan martın 29-dək Bakı-Sumqayıt-Bakı və Bakı-Pirşağı-Bakı elektrik qatarları istisna olmaqla, ölkədaxili sərnişin qatarlarının hərəkəti dayandırılır. Martın 18-dən 29-dək olan tarixlərdə qatarlara alınan biletlər üçün ödənilən məbləğ tam şəkildə vətəndaşlara geri qaytarılır. Bilet satışı qaydalarına uyğun olaraq, sərnişinlər qatarın yola düşəcəyi vaxtdan əvvəl bileti qaytarıb, ödədikləri məbləği geri ala bilərlər.

## DİN bayram günlərində gücləndirilmiş iş rejimində işləyəcək

Ölkəmizdə koronavirus infeksiyasının yayılması hallarının qarşısını almaq məqsədi ilə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilmiş qərarların icrası ilə əlaqədar daxili işlər orqanlarının da əməkdaşları gücləndirilmiş iş rejimində xidmət edirlər. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, polisin gücləndirilmiş iş rejimindəki fəaliyyəti Novruz bayramı günlərində də davam etdiriləcək.

Belə ki, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə daxili işlər orqanlarının şəxsi heyəti Novruz bayramı günlərində ictimai asayişin daha nümunəvi qorunması məqsədi ilə mart ayının 20-dən 27-dək gücləndirilmiş iş variantında xidmət edəcəklər.

# Bu gün Azərbaycan Respublikası miqrasiya orqanları işçilərinin peşə bayramı günüdür



***Azərbaycanda dövlət miqrasiya siyasəti milli maraqların və milli təhlükəsizliyin qorunmasına xidmət edir. Qloballaşan XXI əsrdə Azərbaycan öz müstəqillik salnaməsinə tarixi uğurlar yazmaqda davam etdirir. Ölkəmizin əldə etdiyi bu tarixi uğurları Azərbaycan Prezidenti İlham Əliyevin Ulu Öndər Heydər Əliyevin uzaqgörən strateji xəttini çox böyük siyasi ustalıqla dünyanın və zamanın sərt tələblərinə uyğunlaşdıraraq, davam etdirdiyini və ölkəmizi regionun lider dövlətinə çevirməklə, ona böyük şərəf, sosial rifah və tərəqqi gətirdiyini təsdiqləyir.***

Geostrateji baxımdan, Azərbaycan üçün böyük əhəmiyyət daşıyan nailiyyət özündə ölkənin sabit daxili və xarici siyasətini, sürətli sosial-iqtisadi inkişaf tempini, qloballaşan dünyaya uğurlu inteqrasiyanı, beynəlxalq əməkdaşlığı və tolerantlığı ehtiva edir.

Bu gün uğurlu inkişaf dövrünü yaşayan Azərbaycanda miqrasiya orqanları işçiləri peşə bayramını qeyd edir. Azərbaycan Prezidenti İlham Əliyevin 2010-cu il 17 mart tarixli Sərəncamı ilə hər il martın 19-u Azərbaycan Respublikası miqrasiya orqanları işçilərinin peşə bayramı günü qeyd olunur. Azərbaycan inkişaf etdikcə, əcnəbi və vətəndaşlığı olmayan şəxslər üçün daha cəlbedici bir regiona çevrilir, ölkəmizə miqrasiya axını ildən-ilə artır. Bu da, ölkənin inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından, milli maraqlara uyğun miqrasiya siyasətinin həyata keçirilməsini, onun əsasında miqrasiya proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsini və inkişaf etdirilməsini, dövlət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsini və bu sahədə beynəlxalq əməkdaşlığı zəruri edir.

Ölkəmizdə dünya təcrübəsinə söykənən vahid miqrasiya siyasətinin formalaşmasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə hazırlanan və dövlət başçısının 2004-cü ildə təsdiq etdiyi "Dövlət Miqrasiya Siyasəti Konsepsiyası" çox mühüm rol oynamışdır. Hökumət qurumları qarşısında əsas məqsədləri müəyyən edən "Dövlət Miqrasiya Siyasəti Konsepsiyası"nın gerçəkləşdirilməsi və qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün hazırlanmış "Azərbaycan Respublikasının 2006-2008-ci illər üçün Dövlət Miqrasiya Proqramı" isə Prezident İlham Əliyevin 25 iyul 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Proqramda, əsas fəaliyyət istiqamətləri olaraq, miqrasiya sahəsində idarəetmə mexanizminin təkmilləşdirilməsi, bu sahədə dövlət tərəfindən tənzimlənmənin səmərəliliyinin artırılması, aidiyyəti dövlət orqanlarının miqrasiya sahəsində fəaliyyətlərinin əlaqələndirilməsi, mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi, əmək miqrasiyası sahəsində kvotaların tətbiqi, qeyri-qanuni miqrasiyanın qarşısının alınması üzrə kompleks tədbirlərin həyata keçirilməsi və eləcə də, digər ölkələrin miqrasiya qurumları və əlaqədar beynəlxalq təşkilatlarla əməkdaşlıq nəzərdə tutulmuşdur. Dövlət Miqrasiya Proqramından irəli gələn məsələlərin həyata keçirilməsi ölkəmizdə miqrasiya üzrə daha təkmil, bir sistemin yaradılmasına yönəlmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 19 mart 2007-ci il tarixdə imzaladığı Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında Fərmanı isə miqrasiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi, idarəetmə sisteminin inkişaf etdirilməsi, miqrasiya proseslərinin tənzimlənməsi və proqnozlaşdırılması, bu sahədə müvafiq dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi məqsədinə xidmət etmişdir.

Ölkəmizdə keçirilən mötəbər beynəlxalq idman yarışları - IV İslam Həmrəyliyi Oyunları, "Formula-1 Azərbaycan Qran-Pri"si, Bakı şəhərində və Göygöl rayonunda keçirilən voleybol üzrə qadınlar arasında Avropa çempionatının final mərhələsi və digər beynəlxalq tədbirlərdə xidmətin qarşısına qoyulmuş tapşırıqların icrası tam təmin edilib. Ali diqqət və qayğı, eyni zamanda, ciddi nəzarət, tələbkarlıq sayəsində DMX-nin qarşıya qoyulan, qanunvericiliklə üzərinə düşən bütün vəzifələrin öhdəsindən gələ bilir.

Bu gün DMX-nin inkişafı üçün qəbul edilən qərarlar, göstərilən diqqət və qayğı şəxsi heyət tərəfindən həmişə dərin minnətdarlıq və ruh yüksəkliyi ilə qarşılanır. Ölkə rəhbərinin xidmətin fəaliyyətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, verdiyi tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla miqrasiya orqanları işçilərini daha böyük uğurlara ruhlandırır. Məhz dövlətin əvəzsiz dəstəyi sayəsində DMX aparatının, regional miqrasiya idarələrinin inzibati binalarının tikintisi istiqamətində ardıcıl tədbirlər həyata keçirilib və xidmət şəraiti beynəlxalq standartlara uyğun təchiz edilib.

DMX-nin əməkdaşları bundan sonra da müstəqilliyin, sabitliyin, təhlükəsizliyin, daxili əmək bazarının qorunmasının və xidmətə müraciət edənlərin məmnunluğunun, ölkəmizə təşrif buyuran əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi işinin keşiyində ayıq-sayıq dayanır. Səy və bacarıqlarını əsirgəməyərək, peşəkarlıqlarını daim artırırlar.

***ZÜMRÜD***

# Sədaqət Vəliyeva: "Tətbiq olunan qaydalar təkcə dövlət orqanlarının deyil, hər bir vətəndaşın da üzərinə müvafiq məsuliyyət qoyur"

***"Ümumiyyətlə, vətəndaşların layiqli həyat şəraitinin təmin edilməsi, onların təhlükəsizliyinin təmin olunması və hazırkı qlobal problemin təsirindən müdafiəsi Azərbaycan dövləti üçün ən vacib və prioritet məsələdir. Azərbaycan güclü dövlətdir, öz vətəndaşlarını bütün növ təhlükələrdən etibarlı müdafiəsini təşkil etmək üçün zəruri potensiala malikdir.***

ÜST-ün ekspertlərinin də, qeyd etdikləri kimi, Azərbaycan hazırkı qlobal təhlükənin ölkə əhalisinə təsirini mümkün qədər minimallaşdırmaq üçün ən səmərəli tədbirlər həyata keçirən ölkələrdən biridir". Bunu Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.



Sədaqət Vəliyeva bildirib ki, koronavirus infeksiyasının dünya ölkələrində geniş yayıldığı, Ümumdünya Səhiyyə Təşkilatının qlobal pandemiya elan etidiyi şəraitdə dünya ölkələri əhalinin sağlamlığının qorunması və virusun daha geniş coğrafiyaya yayılmasının qarşısını almaq üçün ciddi tədbirlərin həyata keçirilməsinə başlayıblar: "Ayrı-ayrı dövlətlərlə təmasların minimallaşdırılması və ya ümumiyyətlə, dayandırılması, ölkə daxilində ictimai həyata və davranışa sərt məhdudiyyətlərin tətbiq edilməsi bir çox ölkələr üçün səciyyəvi hal alıb. Təsadüfi də deyildir ki, hazırda Azərbaycan hökuməti ÜST-ün tövsiyyələrini və beynəlxalq təcrübəni nəzərə alaraq, əhalinin sağlamlığının etibarlı qorunması və virusun yayılmasının qarşısının alınması üçün həyata keçirilən tədbirlərin əhatə dairəsini daha da genişləndirib".

Sədaqət Vəliyeva əlavə edib ki, bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması, dövlət və özəl sektora aid qurumlar, vətəndaşlar üçün xüsusi qaydaların elan olunması və onlara ciddi riayət olunması üçün nəzarət mexanizminin formalaşdırılması və tətbiqi alqışlanılmalıdır: Çünki tətbiq olunan qaydalar təkcə dövlət orqanlarının deyil, ümumilikdə, bütün cəmiyyətin, fərdi qaydada hər bir vətəndaşın üzərinə müvafiq məsuliyyət qoyur. Bu, milli təhlükəsizlik və milli həmrəylik məsələsi olduğu qədər, həm də informasiya təhlükəsizliyidir. Ona görə də, tutduğu mövqedən, baxışlarından asılı olmayaraq, hər bir vətəndaşdan maksimal şəkildə diqqətli və məsuliyyətli olmaq tələb olunur. Hər bir vətəndaş bilməlidir ki, tətbiq olunan qaydalar, ilk növbədə, onun və yaxınlarının təhlükəsizliyini, sağlamlığını təmin edən müvəqqəti və məcburi addımlardır. Buna görə də, hamı qaydalara anlaşıqlı, dözümlü yanaşmalı, onları maksimum icra etməyə çalışmalıdır. Belə bir şəraitdə məsuliyyət təkcə dövlət qurumlarının üzərinə düşmür. Burada hər bir vətəndaş sosial məsuliyyətini anlamalı və Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarlarının qeyd-şərtsiz yerinə yetirilməsinə öz töhfəsini verməlidir".

***RƏFİQƏ***

# "Global Policy Analysis" jurnalın ilk nömrəsi işıq üzü görüb

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ingilis dilində çap olunan "Global Policy Analysis" ("Beynəlxalq siyasi təhlil") jurnalının ilk nömrəsi işıq üzü görüb. AZƏRTAC xəbər verir ki, jurnal dünyanın nüfuzlu sabiq ölkə və hökumət rəhbərləri, tanınmış ekspertlərin və alimlərin dünyada baş verən qlobal mövzulara, müxtəlif hadisələrə münasibətini əks etdirəcək. Layihənin məqsədi "Beynəlxalq siyasi təhlil" oxucularını yeni, dəqiq, məlumatlı və maarifləndirici informasiya ilə təmin etməkdir. Jurnalın rüblük olaraq, elektron və çap formasında nəşr olunacağı nəzərdə tutulur.


NIZAMI GANJAVI INTERNATIONAL CENTER

FROM THE EDITOR-IN-CHIEF

COVID-19 GLOBAL ALERT: HOW TO RESPOND?

A NON-TRADITIONAL SECURITY THREAT

Jurnalın ilk buraxılışında qlobal epidemiya olan koronavirus probleminə xüsusi yer ayrılıb və Çin Xalq Respublikasının sabiq Xarici İşlər Nazirinin müavini He Yafeinin COVİD-19 epidemiyası ilə bağlı önəmli məqaləsi dərc edilib. Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi üzvlərinin dəstəyi ilə son ayda bu məsələ ilə bağlı bir sıra təşəbbüslər reallaşdırılıb.

Nəşrdə Belçikanın sabiq baş naziri İv Letermenin "Avropanın post-breksit gələcəyi: qarşıda duran məsələlər", Dünya Bankının keçmiş vitse-prezidenti İsmail Serageldinin "İslam və Qərb: qarşıdurmalar", İtaliyanın Azərbaycandakı səfiri Augusto Massarinin "İtaliya-Azərbaycan münasibətləri", Çin İctimai Əlaqələr İnstitutun prezidenti, Çinin Avropa Biliyindəki sabiq səfiri Vu Hailonqun "Koronavirusla mübarizədə Çin təcrübəsi", Şanxay Əməkdaşlıq Təşkilatının sabiq Baş katibi Rəşid Əlimovun "Asiyanın Əsri", Xarici Siyasət üzrə Amerika Milli Komitəsinin prezidenti Susan Elliottun "ABŞ və Qərbi Balkanlar" sərlövhəli münasibətləri öz əksini tapıb.

## "Azərbaycan koronavirusla mübarizə sahəsində ən qabaqcıl ölkələr sırasındadır"




Azərbaycan koronavirusla mübarizə sahəsində ən qabaqcıl ölkələr sırasındadır, hazırda hər cür təminatımız var. AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev parlamentin dünən keçirilən iclasında bildirib. "Nazirlər Kabineti yanında operativ qərargah tərəfindən gün ərzində bir neçə dəfə son vəziyyətlə bağlı məlumat verilir. Hesab edirəm ki, yalan məlumatların yayılmasının qarşısı alınacaq",- deyən Komitə sədri insanları Nazirlər Kabineti yanında operativ qərargahın tövsiyələrinə əməl etməyə çağırıb.

# Azərbaycan musiqi tarixinin korifeyi - Xan Şuşinski



***Ömrünü xalq musiqisinin təbliğinə həsr edənləri xalq heç vaxt yaddan çıxarmır, unutmur. İllər ötdükcə bu qəbildən olan insanların xatirəsi daha böyük hörmət və ehtiramla yad olunur. Azərbaycan muğam sənətinin, klassik musiqi nümunələrinin gözəl bilicisi, orijinal, özünəməxsus ifa tərzi ilə seçilən, milli musiqi xəzinəmizin zənginləşməsində misilsiz xidmətləri olan Xan Şuşinski də belə sənətkardandır.***

AZƏRTAC xəbər verir ki, dünən Azərbaycan muğam sənətinin "Xan"ı adlandırılan İsfəndiyar Aslan oğlu Cavanşirin ölümündən 41 il ötür. 1901-ci il avqustun 20-də Şuşa şəhərində dünyaya göz açan sənətkar adını milli musiqi tariximizə böyük hərflərlə yazdırmağı bacarıb.

"Xan" ləqəbinin tarixçəsinə görə İsfəndiyar ustadı - Segah İslam kimi tanınan İslam Abdullayevlə birgə Ağdamın Novruzlu kəndində bir məclisdə imiş. Ev sahibi İslam Abdullayevin arzusu ilə qrammofonu qurur və onlar təbrizli Əbülhəsən xanın ifasında "Kürdü Şahnaz"ı dinləyirlər. Hamının heyranlıqla qulaq asdığı bu ifadan sonra Segah İslam gözlənilmədən üzünü İsfəndiyara tutaraq: "Bəlkə sən də bizim üçün "Kürdü Şahnaz"ı oxuyasan?" - deyir. İsfəndiyar 12-13 yaşından başlayaraq saatlarla Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Əbülhəsən xanın vallarını dinləyib, onların ifasının ən incə məqamlarını belə olduğu kimi təqlid etməyə çalışsa da, birdən-birə, özü də Əbülhəsən xanın ifasından sonra oxumağa tərəddüd edir, lakin ustadının sözünü yerə salmır. "Kürdü Şahnaz"ı İsfəndiyar elə oxuyur ki, məclis əhli yerbəyerdən Əbülhəsən xanın adının birinci hissəsini ixtisara salıb, heyrətlə "Əsl xan elə bu imiş ki!" - deyir. Vəcdə gələn İslam Abdullayev isə "Bu gündən sənin adın oldu Xan Şuşinski", - deyərək ona ustad xeyir-duasını verir.

Xan Şuşinski 1920-ci illərdə Bakıya gələrək öz ifaçılıq fəaliyyətini genişləndirib. O, muğamların mahir bilicisi və ifaçısı idi. Xanın repertuarında "Mahur-Hindi", "Bayatı-Qacar", "Qatar" muğamları, "Qarabağ şikəstəsi", "Arazbarı", "Heyratı" zərbi muğamları ilə yanaşı, xalq mahnıları və təsniflər böyük yer tutub. Xan Şuşinski xalq mahnılarını xüsusi bir şövqlə oxuyub, onları yeni çalarlarla zənginləşdirib.

Görkəmli xanəndənin bir sıra bəstələri də olub. Çox zaman xalq mahnıları kimi təqdim olunan "Qəmərim", "Şuşanın dağları", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağında", "Dağlarda çiçək", "Gözəl yarım", "Ölürəm, a Ceyran bala" mahnılarının müəllifi əslində Xan Şuşinskidir. "Şuşanın dağları" mahnısının musiqisi ilə yanaşı, sözləri də onundur.

Xan Şuşinski Üzeyir Hacıbəylidən başqa heç bir bəstəkarın yaradıcılığına müraciət etməyib. Deyilənə görə, Üzeyir Hacıbəyli də xanəndənin ifasında mahnıları, xüsusilə "Qaragöz"ü dinləməkdən zövq alırmış.

Görkəmli xanəndə 1979-cu il martın 18-də vəfat edib.

Azərbaycan musiqi tarixinin korifeyi Xan Şuşinskinin səsindən yadigar kimi cəmi 240 dəqiqəlik lent yazısı qalıb.

Qərinələr, əsrlər ötəcək, ancaq Xan əminin sənətinə olan sevgi heç vaxt azalmayacaq. Ona görə ki, bu sevginin mayasında, ruhunda Azərbaycanın heç vaxt təravətini itirməyən əbədi və əzəli muğamları dayanır. Onun yaratdığı ölməz sənət əsərləri Azərbaycan musiqisinin ən dəyərli inciləri kimi əsrlərboyu yaşayacaq, öz müəllifini hər zaman yaşadacaq, onu unudulmağa qoymayacaq.

# Dövlət Proqramının uğurlu icrası nəticəsində Naxçıvanda ötən dörd ildə 11 min 524 yeni iş yeri açılıb



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi nəticəsində proqram qəbul edilən gündən bu günədək 11 min 524, o cümlədən 2019-cu ildə 3 min 250 yeni iş yeri açılıb.***

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, ötən il muxtar respublikada iqtisadi fəal əhalinin 99,9 faizini iqtisadi sahədə məşğul olanlar təşkil edib. Təbii ki, yeni iş yerlərinin açılması insanların sosial rifah səviyyəsinin və ümumilikdə, muxtar respublika iqtisadiyyatının inkişafına təkan verir.

Müvafiq dövrdə aidiyyəti dövlət orqanları ilə birlikdə aparılan monitorinq və yoxlamaların nəticəsi olaraq 2016-cı ildə 424 hüquqi və fiziki şəxsdə 218 yeni əmək müqaviləsinin bağlanılmasına, 1066 şəxsin əməkhaqqının real əməkhaqqı səviyyəsində göstərilməsinə, 2017-ci ildə 573 hüquqi və fiziki şəxsdə 443 yeni əmək müqaviləsinin bağlanılmasına, 1475 şəxsin əməkhaqqının real əməkhaqqı səviyyəsində göstərilməsinə, 2018-ci ildə 676 hüquqi və fiziki şəxsdə 511 yeni əmək müqaviləsinin bağlanılmasına, 1811 şəxsin əməkhaqqının real əməkhaqqı səviyyəsində göstərilməsinə, 2019-cu ildə 355 hüquqi və fiziki şəxsdə 620 yeni əmək müqaviləsinin bağlanılmasına, 582 şəxsin isə əməkhaqqının real əməkhaqqı səviyyəsində göstərilməsinə, o cümlədən ölkədə minimum əməkhaqqı məbləğinin yüksəldilməsi ilə əlaqədar 539 şəxsin əməkhaqqının minimum əməkhaqqı səviyyəsinə yüksəldilməsinə nail olunub.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin qeydiyyatı 2020-ci ilin müvafiq aylarında da davam etdirilib. Belə ki, yanvar və fevral aylarında Dövlət Vergi Xidmətinin "bir pəncərə" qeydiyyat sistemi vasitəsilə 7 publik hüquqi şəxs, 7 kommersiya hüquqi şəxs və 3 qeyri-kommersiya hüquqi şəxs, həmçinin yerli vergi orqanları tərəfindən 518 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan fiziki şəxslərin 71 faizi muxtar respublika rayonlarının payına düşüb.

Muxtar respublikada həyata keçirilən sosial siyasətin əsas məqsədi əmək ehtiyatlarından daha effektiv istifadə etmək və əhalinin səmərəli məşğulluğuna nail olmaqdır.

## "Bakıya giriş çıxışın məhdudlaşdırılması virusu lokallaşdıracaq"



"Azərbaycanda həyata keçirilən izolyasiya tədbirləri koronavirusun yayılmasının qarşısının alınmasına xidmət edir. Bu günə qədər koronavirusa yoluxan xəstələrin demək olar ki hamısı xarici ölkədən gələnlərdir. Bu xəstəliyin ölkə daxilində yayılmasının qarşısının alınması istiqamətində tətbiq edilən tədbirlər çox mühüm əhəmiyyətə malikdir". Bu fikirləri SİA-ya açıqlamasında Səhiyyə Nazirliyinin baş infeksionisti Cəlal İsayev bildirib.

O deyib ki, məktəblərin, əyləncə mərkəzlərinin bağlanması, eləcə də restoranların fəaliyyətinin, eləcə də toy məclislərinin, müxtəlif tədbirlərin təxirə salınması insanların təmas ehtimalının azalması və xəstəliyin yayılmasının azalmasına səbəb olur: "Ümumdünya Səhiyyə Təşkilatının da tövsiyyələrində də qeyd olunur ki, insanlar arasında məsafə 1 metrdən çox olarsa yolxuma ehtiamlı azalır, 1 metr az olduqda isə bu ehtimal daha da çoxalır. Bunları nəzərə alaraq, izolyasiya tədbirlərinin keçirilməsi çox mühüm qəraradır. Azərbaycan dövləti insanların qorunması yöndə çox vacib addım atıb".

C. İsayev söyləyib ki, Bakı, Abşeron və Sumqayıt istiqamətində giriş və çıxışın məhdudlaşdırılması istiqamətində atılan addımlar virusun lokallaşdırılmasında çox böyük əhəmiyyətli rol oynayacaq: "Çünki Bakıda nə qədər insan az olsa, sıxlıq olmasa bir o qədər yaxşıdır. Xaricdən gələn insanlarla xüsusilə sərhəd rayonlarında yaşayan şəxslərin təmas etmə ehtimalı çox yüksəkdir. Belə olan halda, həmin şəxslərin Bakıya daxil olması paytaxtda infeksiyanın yayılma ehtimalını artırırdı. Atılan addımdan sonra artıq bu ehtimal həm aşağı düşəcək, həm də Bakıda sıxlıq azalacaq". Baş infeksionist martın 29-dək verilən qərarın müddətinin uzadılmasını məsləhət görüb.

## Azərbaycanda koronavirusa yoluxmuş daha 4 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasına yoluxduğu müəyyən edilmiş daha 4 nəfər xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalıb və evə buraxılıb. Bu barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında Operativ Qərargahından məlumat verilib. Hazırda Azərbaycanda 23 nəfər aktiv koronavirus xəstəsi xüsusi rejimli xəstəxanalarda həkim nəzarəti altındadır, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər davam etdirilir.

Məlumatda deyilir: "Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma sürətini nəzərə alaraq, vətəndaşlarımızı Ümumdünya Səhiyyə Təşkilatı və Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinə riayət etməyə çağırırıq".

## İki ayda Azərbaycanla Ukraynanın ticarət dövriyyəsi 150 milyon dollara yaxın olub

Yanvar-fevral aylarında Azərbaycan və Ukrayna arasında idxal-ixrac əməliyyatlarının dəyəri 150 milyon dollara yaxın olub. Ukrayna Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, iki ayda Azərbaycandan bu ölkəyə 88,1 milyon dollarlıq məhsul ixrac olunub. Hesabat dövründə Azərbaycanın Ukraynadan idxal etdiyi məhsulun dəyəri isə 60,7 milyon dollar təşkil edib. Qeyd edək ki, Ukrayna postsovet məkanında Azərbaycanla ticarət dövriyyəsinə görə Rusiyadan sonra ikincidir. Keçən il Azərbaycan və Ukrayna arasında ticarət dövriyyəsi 808 milyon dollara çatıb.

# Əli Kərimli, Britaniyada tualet kağızı belə tapılmır!

AXCP sədrindən və "Milli Şura" dirijorundan daha çox bloger təsiri bağışlayan Əli Kərimli, bir neçə



gündür ki, sosial şəbəkədə dünyada baş verən iqtisadi böhranı qoyub bir kənara, guya Azərbaycanda "COVİD-19"-a görə, böhranın yaşandığını iddia edir. Halbuki bu gün Avropada tüğyan edən koronavirus səbəbi ilə, ərzaq marketlərində qıtlıqlar yaşanır, ümumiyyətlə, insanlara lazım olan bir sıra məhsullar tapılmır. Ancaq digər tərəfdən, onun xəbəri ola-ola ki, ailəsinin yaşadığı Britaniyada ciddi qıtlıq yaşanır, o, yenə də dizinə-başına döyüb, sözün əsl mənasında, siyasi ləçərlik edir. Məgər Ə.Kərimli bilmirmi ki, Britaniya sakinləri, hətta tualet kağızına olan tələbatlarını oyun aparatları ilə təmin edirlər. Hətta deyilənə görə, həmin aparatdan tualet kağızı çıxarmaq üçün 100-120 kilometrlik yol qət edənlər də var!

### Belə bir vəziyyəti Əli Kərimli Azərbaycanda görə bilməz

Bu, nə qədər sarkazm doğursa da, AXCP sədri anlamalıdır ki, yaşadığı dövlətə ləkə və böhtan atmaq xəyanətdir. Düzdür, o, ümumiyyətlə, bunu an-



lamır və bilmir ki, dövlət, dövlət marağı və onu müdafiə etmək nə deməkdir... Yeri gəlmişkən, koronavirusla əlaqədar amerikalılar da ərzaq və digər məhsulları almaq üçün 2,5 kilometrlik növbədə dayanmalı olurlar. Belə bir vəziyyəti Ə.Kərimli Azərbaycanda görə bilməz. Hətta bunu ermənilər qədər istəsə belə.

Daha bir sual yaranır... AXCP sədri niyə demir ki, Donald Tramp amerikalılara düşmən kəsilib, onların ərzağını kəsir, qida təhlükəsizliyini təmin etmir? Niyə iddia etmir ki, ABŞ-da dövlət xalqın yaşamaq və s. hüquqlarını əlindən alır?

### "COVİD-19"-dan sonra bu cür viruslara qarşı da vaksin tapıb, tətbiq etmək lazımdır

Əslində, deyə də bilməz! Çünki ABŞ-ın Dövlət Departamenti dərhal, Ə.Kərimlinin qrantını kəsər, "gül balası" Türkeli, eləcə də, qeyri-rəsmi mətbuat katibi Sevinc Osmanqızını da oturzurar "lödkəyə" və okeanın o tayından bu tayına yollayar ki, bir də geri qayıtmasınlar.

Artıq siyasi arenada Ə.Kərimli haqqında bənzətmələr də yaranıb. Bu gün, o, Azərbaycan müxalifətinə və bütünlüklə, siyasi çevrəsinə yoluxmuş koronavirusdur. Görünür, "COVİD-19"-dan sonra bu cür viruslara qarşı da vaksin tapıb, tətbiq etmək lazımdır.

**RÖVŞƏN**

# Niderland İsveçdən sonra sərhədlərini açıq qoyan ikinci ölkədir

***Niderlandın baş naziri Mark Ryütte millətə müraciətində bəyan edib ki, hazırkı şəraitdə ölkənin tam olaraq bağlanması məsələsi nə qədər cəlbedici görünsə də, həftələrin- ayların işi deyil, bir il, hətta daha çox uzana bilər və buradan bəzi nəticələr də çıxarmaq lazımdır. Bu, İsveçdən sonra öz sərhədlərini açıq qoyan ikinci ölkədir.***



M.Ryütte bəyan edib ki, onun hökuməti virusa yoluxma hallarını maksimal qaydada nəzarət etmək qərarına gəlib. Çünki ona qarşı immunitetin yaradılması məsələsi aylarla, ya da daha çox sürə bilər. Onun fikrincə, ən əsası, hökumət əmin olmaq istəyir ki, xəstələrə yardım etmək üçün xəstəxanalarda lazımi avadanlıqlar, dərmanlar nə qədər yetərlidir. O, həmçinin, hökumətin vəziyyətə nəzarət edəcəyini, bu prosesi saxlamaq, eləcə də, əhalinin yoluxma riskini azaltmaq üçün daha hansı qərarlar qəbul etməli olacağını anlamaq üçün bu addıma gedildiyini bildirib.

### Niderlandda millətə səsləniş uzaq 1973-cü ildə olmuşdu

Qeyd edək ki, Niderlandda millətə səsləniş ənənəsi heç də mütəmadi hal almayıb. Sonuncu dəfə baş nazir tərəfindən edilən bu cür genişmiqyaslı müraciət 1973-cü ildə - neft böhranı ilə bağlı olub. Həmin vaxt Yaxın Şərqdə ərəb ölkələri ilə İsrail arasında gedən müharibə şəraitində neft ölkələri İsrailə dəstək verən digər ölkələri neft təchizindən imtina etmişdilər. Bu sırada Böyük Britaniya, Kanada, ABŞ, Yaponiya və Niderland olub. Məhz həmin dönəmdə neftin qiyməti bir barrelə görə 3 dollardan 12 dollara qədər yüksəlmişdi. Həmin neft böhranı dünyanın ilk nəhəng böhranı oldu və iqtisadiyyata da ciddi zərbələr vurdu. Bu gün dünya koronavirusla bağlı analoji halı yaşayır ki, hətta bunu ("COVİD"-19-la mübarizəni-R.R.) müharibə ilə eyniləşdirmək olar. Virusa gəldikdə isə, Nideralndda müsbət testindən 1 413 nəfər keçib. Ölkənin milli səhiyyə agentliyi isə təsdiq edir ki, bu rəqəm daha çoxdur. Bu ölkədə koronavirusdan, hələ ki, 24 nəfər ölüb.

### Almaniyanın yolu ilə getmək təklifi olsa da...

Hökumət elan edib ki, uşaq bağçaları və məktəblər bağlanacaq. Analoji qərar barlara, restoranlara, idman klublarına, hətta ictimai evlərə (intim xidmət müəssisələri -R.R.) də aiddir. Burada isə, demək olar ki, Niderland Almaniyanın yolu ilə gedəcəyini sərgiləyib - orada da ictimai evlər bağlanmalara məruz qalıblar. Hələlik isə, yel dəyirmanları, kanallar və zanbaqlar ölkəsinin bundan sonra daha hansı yolla gedəcəyi dəqiq məlum deyil. Çünki sadəcə, həmin qərarların verilməsi ilə bağlı, sadəcə, müzakirələr aparılır, təkliflər irəli sürülür, amma qərarlar qəbul olunmur. Lakin indidən bəllidir ki, bu ölkədə də İsveçdəki kimi, panikalarla rastlaşmaq çətindir.

**Rövşən RƏSULOV**

# Donald Tramp: Koronavirusa qarşı mübarizə "görünməz düşmənlə müharibədir"



***ABŞ Prezidenti Donald Tramp koronavirusun Amerika iqtisadiyyatına vurduğu artan iqtisadi zərərə qarşı yeni mübarizə üsullarını təklif edib.***

AZƏRTAC xəbər verir ki, Ağ evin başçısı ABŞ-da koronavirusla mübarizədən danışarkən onu "görünməz düşmən", virusun yayılmasının qarşısının alınması üçün göstərilən səyləri isə "müharibə" adlandırıb. "Biz tezliklə burada dayanacaq və deyəcəyik: "Bəli, biz qalib gəldik - deyə Tpamp bildirib.

Jurnalistlər qarşısında çıxış edən ABŞ Prezidenti və maliyyə naziri Stiven Mnuçin tənəzzülün qaçılmaz olduğunu etiraf ediblər. Onlar koronavirus səbəbindən maliyyə itkisinə məruz qalmış Amerika ailələri üçün vəsait ayrılmasını dəstəklədiklərini bildiriblər. Qarşıdakı iki həftə ərzində minlərlə ailəyə çeklərin göndəriləcəyi qeyd olunub. Tramp deyib ki, onun administrasiyası da iqtisadiyyatı dəstəkləmək məqsədilə əlavə stimul kimi Konqresdən 850 milyard dollara yaxın vəsait ayırmağı xahiş etməyə hazırlaşır. ABŞ Senatının bir neçə üzvü Amerika iqtisadiyyatını dəstəkləmək üçün daha böyük məbləğin - 1 trilyon dollar maliyyə yardımının ayrılmasını müzakirə etdiklərini qeyd edib.

## Koronavirus niyə bu qədər sürətlə yayıldı?



ABŞ-ın "Science" dərgisində yayımlanan bir araşdırmada yeni tip koronavirusun sürətlə yayılma səbəbi ortaya qoyulub. Araşdırmaya əsasən, COVİD-19 daşıyıcılarının 86%-nin xəbəri olmadan toplumda gəzdiyi və "gizli" adlandırılan bu xəstələrin epidemiyanı alovlandırdığı bildirilib.

Çində səyahətlə bağlı məhdudiyyət tətbiq edilmədən əvvəl hər 7 xəstədən 6-nın xəbəri olmadan virusun yayılmasını təhrik etdiyinə diqqət çəkilib.

Kompüter modelləşdirməsindən istifadə edərək Uhan şəhərindən başlayaraq dünyaya yayılan pandemiyanın izlərini təqib edən araşdırmaçılar az simptom göstərən və ya heç göstərməyən gizli virus daşıyıcılarının xəstəliyi bu günə qədər müəyyən edilən xəstələrin üçdən-ikisinə keçirdiklərini üzə çıxarıb. Hesabatın yazarlarından olan Kolumbiya Universitetinin üzvü Ceffri Şaman koronavirusun bu qədər geniş yayılmasını təmin edən faktın insanların soyuqdəymə ilə COVİD-19-u səhv salmaları olduğunu bildirib./publika.az

## Xızıda üç gün əvvəl törədilən qətlin üstü açılıb



Xızı Rayon Polis Şöbəsinin və rayon prokurorluğunun əməkdaşlarının həyata keçirdiyi istintaq-əməliyyat tədbirləri nəticəsində üç gün əvvəl rayon ərazisində törədilən qətlin üstü açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Quba regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, martın 15-də 2003-cu il təvəllüdlü Şorabad qəsəbə sakini Allahşükür Əliyevin bıçaqla yetirilən xəsarət nəticəsində dünyasını dəyişməsi faktına görə rayon prokurorluğunda Cinayət Məcəlləsinin 126.3-cü maddəsi ilə cinayət işi başlanıb. Cinayət işi üzrə hadisə yerinə baxış keçirilib, müvafiq ekspertizalar təyin edilib.

Polis və prokurorluq əməkdaşlarının həyata keçirdikləri təxirəsalınmaz istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri nəticəsində cinayətin şəxsi münasibətlər zəminində həmin qəsəbə sakini olan bir yeniyetmə tərəfindən törədildiyi müəyyən olunub. Yeniyetmə əməkdaşlar tərəfindən şübhəli şəxs qismində tutularaq istintaqa cəlb olunub. Faktla bağlı Xızı rayon prokurorluğu tərəfindən araşdırmalar davam etdirilir.

## Ölkədən 5 min tondan çox şəkər tozu ixrac olunub



Bu ilin yanvar-fevral aylarında ölkədən 5 min tondan çox şəkər tozu ixrac edilib. Dövlət Gömrük Komitəsinin məlumatında deyilir ki, ixrac edilən şəkər tozunun dəyəri 2 milyon ABŞ dolları olub. Xatırladaq ki, ötən ilin eyni aylarında 2,2 milyon dollarlıq 4,8 min ton şəkər tozu ixrac edilib.

# Münaqişə bölgələrində dinc əhalinin qorunması

***Döyüşən tərəfin düşmən əlinə keçmiş bütün yaralıları və xəstələri hərbi əsir sayılır və onlara beynəlxalq hüququn hərbi əsirlərə aid müddəaları tətbiq edilir. Münaqişədə iştirak edən Tərəflər hər bir vaxt, xüsusən, döyüşdən sonra yaralıları və xəstələri tapıb toplamaq, onları qarətdən və pis rəftardan qorumaq, onlara lazımi qayğını təmin etmək, cəsədləri yığıb toplamaq və onların qarət olunmasına yol verməmək üçün təxirə salmadan, bütün mümkün tədbirləri görməlidirlər. Hər dəfə şərait imkan verdikdə, döyüş meydanında tərk edilmiş yaralıları toplamaq, dəyişdirmək və nəql etmək üçün müvəqqəti barışıq və ya atəşkəs əldə olunmalı və ya yerli sazişlər bağlanmalıdır. Bununla bərabər, münaqişədə iştirak edən tərəflər mühasirəyə alınmış və ya dövrələnmiş ərazilərdən yararlanan və xəstələrin çıxarılması və ya onların dəyişdirilməsi, habelə, həmin ərazilərə gələn tibbi və dini heyətin, tibbi ləvazimatın oraya buraxılması üçün yerli sazişlər bağlaya bilərlər.***

Münaqişədə iştirak edən tərəflər əlinə keçmiş qarşı tərəfə mənsub yaralıların, xəstələrin və ya cəsədlərin şəxsiyyətinin müəyyən olunmasına kömək edəcək bütün məlumatı mümkün qədər tez qeydə almalıdırlar. Bu qeydlər, imkan daxilində şəxsin mənsub olduğu dövlətin adı, ordusu, əsgəri, şəxsi və ya seriya nömrəsi, soyadı, adı və ya adları, doğum tarixi, şəxsiyyət vəsiqəsində və ya tanınma lövhəsində olan digər məlumatlar, əsir düşdüyü və ya öldüyü tarix və yer, şəxsin yaralarına, xəstəliyinə və ya ölüm səbəbinə dair məlumatları əks etdirməlidir. Göstərilən məlumatlar mümkün qədər tez Məlumat Bürosuna çatdırılmalı, həmin büro isə onları hami dövlət və Mərkəzi Məlumat Agentliyi vasitəsilə belə şəxslərin mənsub olduğu dövlətə verməlidir. Münaqişədə iştirak edən tərəflər imkan daxilində cəsədlər barədə məlumatları hazırladıqdan sonra onların fərdi surətdə dəfn olunmasını təmin etməlidir. Zəruri gigiyena səbəbləri və ya ölənlərin dini ilə bağlı mülahizələr istisna olmaqla, heç bir halda cəsədlər yandırılmamalıdır. Münaqişədə iştirak edən Tərəflər ölənlərin ləyaqətlə və mümkün qədər mənsub olduqları dinin tələblərinə uyğun olaraq, dəfn edilməsini, qəbirlərinə hörmət edilməsini, onların imkan daxilində milliyyətinə görə qruplaşdırılmasmı və həmişə tapıla bilməsi üçün lazımi qaydada nişanlanmasını və qorunmasını təmin etməlidir. Hərbi hakimiyyət orqanları yerli əhalinin insanpərvərlik hisslərinə müraciət edərək, bu müraciətə qoşulanlara lazımi himayə göstərib, şərait yaratmaqla, özlərinin nəzarəti altında yaralıları və xəstələri könüllü surətdə toplamağa və onlara qayğı göstərməyə çağıra bilərlər. Düşmən Tərəf müəyyən ərazi üzərində nəzarəti ələ alarsa və ya bərpa edərsə belə, şəxslərə onlar eyni himayəni göstərməli və eyni şəraiti yaratmalıdır.

Hərbi hakimiyyət orqanları, hətta müdaxilə edilən və ya işğal altında olan bölgələrdə, milliyyətindən asılı olmayaraq, yaralıları və xəstələri yerli əhalinin və xeyriyyə cəmiyyətlərinin öz təşəbbüsləri ilə toplamasına və onlara qayğı göstərilməsinə icazə verməlidirlər. Mülki əhali yaralılara və xəstələrə hörmət etməlidir. Yaralılara və ya xəstələrə qayğı göstərməyə görə heç kəs təqib və ya mühakimə oluna bilməz. Eyni zamanda, mülki əhali düşmən tərəfə mənsub olan yaralı, xəstə və gəmi qəzasına uğrayanlara heç bir ziyan vurmamalıdır. Beynəlxalq humanitar hüquq normaları mülki əhalinin yaralı və xəstələrə hörmətlə yanaşmaq vəzifəsini müəyyən etsə də, onların zəruri hallarda, hökmən yaralı və xəstələrə yardım göstərmək vəzifəsini nəzərdə tutmamışdır. Bu vəzifə beynəlxalq humanitar hüquq normalarına əsasən, dövlətin üzərinə qoyulur. Belə məlum olur ki, yaralı və xəstələrə yardım göstərmək mülki əhalinin vəzifəsi kimi deyil, hüququ kimi müəyyənləşdirilmişdir. CK-nin kommentariyasında qeyd olunur ki, yaxşı halda, mülki əhali üzərinə bir çox dövlətlərin daxili qanunvericiliyində əksini tapmış "təhlükədə olan şəxsə yardım etmək" öhdəliyi qoyula bilər. E.Davidin bu məsələyə münasibəti bir qədər fərqli və bizə elə gəlir ki, daha hüquqauyğundur. O, belə hesab edir ki, yaralı, xəstə və gəmi qəzasına uğrayanlara hörmət və mühafizə mülki şəxslərin onlara yardım göstərməsini, əlbəttə ki, imkan daxilində, nəzərdə tutur. E.David fikrini əsaslandırmaq üçün "İnsan hüquqları haqqında Ümumi Bəyannamə"nin 29-cu maddəsinin 1-ci bəndində öz ifadəsini tapmış "hər kəs cəmiyyət qarşısında borcludur" və ya 30-cu maddədə nəzərdə tutulan heç nə "həmin Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların ləğv edilməsinə yönəldilmiş hər hansı fəaliyyətlə məşğul olmaq, yaxud hərəkətlər hüququ verilməsi kimi yozula bilməz" müddəalarına istinad edir. Başqa sözlə, azadlıq hüququ, o demək deyildir ki, insana qayğı göstərilmədiyinə görə, əzab çəkməyə məhkum edilmiş insandan yan keçə bilər. Əlavə Protokolun kommentariyasında da bu müddəa öz təsdiqini tapmışdır. Orada göstərilir ki, yaralı, xəstə və gəmi qəzasına uğrayanlara hörmət və mühafizə öhdəliyi silahlı qüvvələr və ya silahlı qruplar, yaxud mülki əhalinin nümayəndəsi olmasından asılı olmayaraq, hər kəsin üzərinə qoyulur. III CK-nın 21-ci maddəsinə əsasən, münaqişədə iştirak edən tərəflər neytral ticarət gəmilərinin, yaxtaların və ya digər kiçik gəmilərin komandirlərinin insanpərvərlik hisslərinə müraciət edərək, yaralıları, xəstələri və gəmi qəzasına uğrayanları gəmiyə götürməyə və onlara qayğı göstərməyə, habelə cəsədləri toplamağa çağıra bilərlər. Bu çağınşa cavab verən bütün növ gəmilərə, eləcə də, öz təşəbbüsü ilə yaralıları, xəstələri, gəmi qəzasına uğrayanları toplayanlara belə missiyanın yerinə yetirilməsi üçün xüsusi qayğı və kömək göstərilməlidir. Həmin gəmilər bu cür daşımalara görə, heç bir halda, tutulub saxlanıla bilməzlər.

Yaralılar və xəstələr onlar üçün təminat verilmiş hüquqlardan, heç bir halda, qismən və ya bütövlükdə, imtina edə bilməzlər. Eyni zamanda, yaralı və xəstələrə qarşı repressaliyə yol verilmir. Silahlı münaqişə zmanı tibbi heyətin hüquqlarının müdafiəsi. Tibbi heyətin mühafizə altında olan şəxslər kateqoriyasına aid edilməsi öz başlanğıcını 1864-cü il "Quru müharibələri zamanı yaralı və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" Konvensiyadan götürmüşdür. Konvensiya yaralı və xəstələrə yardım göstərilməsini nəzərdə tutmaqla yanaşı, tibb heyətinin neytrallığını da elan etmişdi. Konvensiyanın 2-ci maddəsində göstərilirdi ki, "intendant heyət, tibb, inzibati və nəqliyyat xidmətləri, eləcə də, ruhanilər öz vəzifələrini yerinə yetirərkən, həmin neytrallığın üstünlüklərindən istifadə edə bilərlər". Cenevrə hüququnun inkişafı ilə əlaqədar silahlı münaqişələr zamanı tibbi heyətin mühafizəsi də inkişaf etdi. Cenevrə hüququnda artıq tibb xidmətinin ümumi himayə öhdəliyi ilə bağlı olan xüsusi statusa malik olması öz ifadəsini tapmışdır. CK-lara və onlara Əlavə Protokollara, müvafiq olaraq, tibb heyəti, tibb birləşmələri və tibbi nəqliyyat vasitələri himayə altındadırlar.

Beynəlxalq humanitar hüquq silahlı münaqişə zamanı xidməti zəruri olan tibb heyətini aşağıdakı hallarda mühafizə edir:

- onların ölkələri ərazisində daxili münaqişə mövcud olduqda;
- onların ölkəsi başqa ölkə ilə münaqişəyə cəlb olunduqda;
- onların ölkəsi qismən və ya tamamilə başqa ölkə tərəfindən işğal olunduqda;
- onların Qırmızı Xaç və ya Qırmızı Aypara milli cəmiyyətləri və ya ölkələri münaqişədə neytrallığı qoruyaraq, tibbi heyəti döyüşən tərəflərin birinin və ya BQXK-nın sərəncamına vermək barədə qərar qəbul etdikdə.

I CK-nın 24-cü maddəsinə əsasən, daimi tibbi heyət "müstəsna olaraq, yaralıların və xəstələrin axtarılması, toplanması, daşınması və ya müalicəsi və ya xəstəliklərdən qorunması ilə məşğul olan, yalnız tibbi birləşmələrə və müəssisələrinə mənsub heyətdir". Konvensiyanın 25- ci maddəsi yardımçı tibbi heyəti "yaralıların və xəstələrin axtarılması və ya toplanması, daşmnlası və ya müalicəsi məqsədilə zəruri hallarda sanitar, tibb bacısı və ya xərəkçi kimi fəaliyyət göstərmək üçün xüsusi təlim almış silahlı qüvvələrin üzvləri" kimi müəyyənləşdirmişdir. Həmin şəxslər yalnız göstərilən vəzifələri icra etdikdə, tibbi heyət statusuna malik olurlar. 24-cü maddədə göstərilən heyətin vəzifələrini icra edən, öz dövlətləri tərəfindən lazımi qaydada tanınmış və səlahiyyət verilmiş Milli Qırmızı Xaç Cəmiyyətlərinin və digər Könüllü Yardım Cəmiyyətlərinin heyətləri, müharibə qayda-qanunlarına tabe olduqları halda, həmin maddədə göstərilən heyətə bərabər tutulur.

Neytral ölkənin səlahiyyətli cəmiyyəti, yalnız münaqişədə iştirak edən tərəfin və öz dövlətinin qabaqcadan razılığı ilə, münaqişədə iştirak edən tərəfə özünün tibbi heyəti və birləşmələri vasitəsilə yardım göstərə bilər. Belə heyət və birləşmələr razılığını vermiş münaqişədə iştirak edən tərəfin nəzarəti altına verilir. Neytral Dövlət bu yardımı qəbul edən dövlətin düşməninə bu razılıq barəsində məlumat verir. Münaqişədə iştirak edən və yardımı qəbul edən tərəf, həmin yardımdan istifadə etməzdən əvvəl, düşmən tərəfə bu barədə məlumat verməlidir. Belə yardım, heç bir halda, münaqişəyə müdaxilə kimi qiymətləndirilməməlidir. II Cenevrə Konvensiyasının 36-cı maddəsinə əsasən, xəstəxana gəmilərinin dini, tibbi və xəstəxana heyətlərinə və bu gəmilərin komandasına hörmət və himayə göstərilməlidir; gəminin bortunda yaralı və xəstələrin olub-olmamasından asılı olmayaraq, onlar xəstəxana gəmilərində xidmət zamanı tutula bilməzlər. I Əlavə Protokola əsasən, tibbi heyət anlayışı bir qədər də genişləndirilmişdir.

"Tibbi heyət" dedikdə, münaqişədə iştirak edən tərəflərin yalnız yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların axtarılması, toplanması, daşınması, diaqnoz qoyulması və ya müalicəsi, o cümlədən, ilk tibbi yardım göstərilməsi, habelə, xəstəliklərin profilaktikası məqsədilə və ya tibbi birləşmələri idarə etmək və ya tibbi nəqliyyat vasitələrini işlətmək və idarə etmək üçün təyin etdikləri şəxslər nəzərdə tutulur. Belə təyinatlar həm daimi, həm də müvəqqəti ola bilər. Həmin termin aşağıdakıları əhatə edir:

**1)** I və II Cenevrə Konvensiyalarında göstərilən heyət də daxil olmaqla, münaqişədə iştirak edən Tərəfin həm hərbi, həm də mülki tibbi heyəti və mülki-müdafiə təşkilatlarına təhkim olunmuş heyət;

**2)** Milli Qırmızı Xaç (Qırmızı Aypara, Qırmızı Şir və Günəş) Cəmiyyətlərinin və digər milli könüllü yardım cəmiyyətlərinin münaqişədə iştirak edən tərəfin lazımi qaydada tanıdığı və səlahiyyət verdiyi tibbi heyəti;

**3)** Tibbi birləşmələrin və ya tibbi nəqliyyat vasitələrinin tibbi heyəti.

Tibbi heyət mülki və ya hərbi heyətdən ibarət ola bilər. Mülki heyət yalnız mənsub olduğu və münaqişədə iştirak edən tərəfin göstərişini aldığı halda, beynəlxalq humanitar hüququn tibbi heyətə verdiyi mühafizədən istifadə edir. Deməli, silahlı münaqişə zamanı fəaliyyət göstərən, lakin öz ölkəsinin müvafiq göstərişini almamış mülki həkim beynəlxalq humanitar hüquqa görə tibbi heyətin tərkibinə aid edilmir. Bu məhdudiyyət onunla əlaqədardır ki, tibbi heyət silahlı münaqişə zamanı xüsusi imtiyazlara malik olur. Döyüşən tərəf hər cür mümkün sui-istifadəyə görə cavabdehlik daşıdığından, həmin imtiyazlar verilmiş şəxslər üzərində müəyyən nəzarəti həyata keçirməlidir. Onu da, qeyd etmək lazımdır ki, I Əlavə Protokolun 8-ci maddəsinin "e" bəndində nəzərdə tutulmuş tibbi heyət termini "dar mənada" işlədilmişdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Əli Kərimli karantinə alınsın və məsuliyyətə cəlb olunsun!

**_Bəlli olduğu kimi, ölkəmizdə karonavirusla bağlı ciddi tədbirlər həyata keçirilir. Dünyanı cənginə alan infeksiyanın yayılmamasının qarşısının alınması istiqamətində aparılan işlərlə yanaşı, eyni zamanda, panika, süni təlaş yaratmağa cəhd edənlər də məsuliyyətə cəlb edilirlər. Təəssüf ki, ölkəmizdə də bəzi ünsürər də var və onlar sabotajçılıq əməlləri ilə məsələni müxtəlif istiqamətlərə yozmağa çalışırlar. Onlardan biri də AXCP sədri Əli Kərimlidir. Sirr deyil ki, AXCP sədri dəfələrlə saxta, yalan xəbərlərinə görə ifşa olunub. Bu dəfə isə onu Azərbaycan Televiziyası ifşa edib._**




### Əli Kərimli savadsız və məsuliyyətsizdir!

Məsələ ondadır ki, Ə.Kərimli növbəti dəfə klaviaturası arxasına keçərək, "facebook" səhifəsində AzTV-də getmiş reportajdakı fikri kontekstdən çıxarmaqla, təxribat törətməyə çalışıb. Lakin adıçəkilən televiziya məlumat yaymaqla, saxtakar və sabotajçı Ə.Kərimlini ifşa edib və fikirlərinin yalan olduğunu isbatlayıb: SİTAT "... süjetdə qeyd olunur ki, xaricdəki soydaşlarımız daha çox öz ölkələrində qalsalar və yerli tibbi xidmətlərdən yararlansalar, yaxşı olar. Çünki təcrübə də göstərir ki, virusa yoluxma halları, xüsusən, səfər prosesində baş verir. Bu fikri kontekstdən çıxarıb yük kimi təqdim etmək və AzTV-ni günahlandırmaq, sadəcə olaraq, savadsızlıq və məsuliyyətsizlikdir".

Məhz bundan sonra Ə.Kərimlinin susqun qalması, daha dəqiq desək, dalana dirənməsi onun öz səhvini boynuna alması kimi qiymətləndirmək olar.

### Əli Kərimli Sabunçu kafesində koronavirus yayıb...

Başqa tərəfdən, AXCP sədri ifşa olunmasına baxmayaraq, ataların "qozbeli qəbir düzəldər", məsələsinə tam uyğun olaraq, növbəti dəfə ölkə boyu tətbiq edilən məhdudiyyətlərə qarşı çıxıb. Belə ki, bütün dünyada və ölkəmizdə kütləvi tədbirlərin ləğv edildiyi, qadağan olunduğu bir zamanda, "cəbhəçilər" bilərəkdən kütləvi toplantı keçirir, sosial izolyasiya tədbirləri qaydalarını pozurlar. Məlumdur ki, Azərbaycanda 14.03.2020-ci il, saat 00:00-dan etibarən sosial izolyasiya tədbirləri tətbiq edilməsinə baxmayaraq, onlar Sabunçuda kafedə toplaşıblar.

Bununla bağlı Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin "Facebook" sosial şəbəkəsində qeyd edilib. Sözügedən məsələdən sonra AXCP sədri Ə.Kərimlinin qanunları pozduğuna görə məsuliyyətə cəlb edilməsi, habelə, karantinə alınması tələb olunub. Çünki kütləvi yığıncaqların qadağan olunduğu bir vaxtda kafeyə toplaşan "cəbhəçilərin" istənilən birində, eləcə də, Ə.Kərimlidə koronavirus aşkarlana bilər və infeksiya sonradan digər insanlara da yoluxar. Çox yəqin ki, onsuz da məsuliyyətsiz olan Kərimli ciddi nəzarətə götürüləndən sonra anlayar ki, növbəti dəfə hansı səhvə yol verib və onun üçün digər insanların həyatı əhəmiyyətsizdir!

Nəticədə, YAP GB-nin gəncləri onun karantinə alınmaqla, həm də məsuliyyətə cəlb olunması tələbini irəli sürüblər. SİTAT: "Artıq cəmiyyətimizdə şübhələr var ki, şəkildə görülən cəbhəçilər koronavirusa yoluxublar. Ona görə də, tələb edirik ki, təcili olaraq, bütün cəbhəçilər karantinə alınsınlar. Onlar cəmiyyətimizin sağlamlığı üçün təhlükədirlər. AXCP sədri Əli Kərimli isə, bilərəkdən, izolyasiya qaydalarına biganə yanaşdığı, cəmiyyətə təhlükə mənbəyi olan kütləvi tədbirə razılıq veridiyi üçün məsuliyyətə cəlb edilsin".

Xatırladaq ki, gənc fəallar bütün ictimaiyyəti, sağlam düşüncəli insanları həmin müraciətə qoşulmağa səsləməklə yanaşı, xüsusi #cebhecilerkarantinealinsin #elikerimlimesuliyyetecelbedilsin həştəqləri də hazırlayıblar.

"Bütün ictimaiyyət bu müraciətə qoşulsun və insanlarımızı cəbhəçilərin koronavirus yaymaq cəhdindən xilas edək" deyə müraciətdə qeyd olunur.

**_Rövşən NURƏDDİNİĞLU_**

# Müxalifətin dağılması labüd fakta çevrilir

## _Teyyub Qənioğlu: "Həmin qadınlar küçələrə fahişəliyi təbliğ etməyə çıxmışdılar"_



**_Bəzi dağıdıcı müxalifət partiya sədrlərinin, xüsusilə də, AXCP, ADP, Müsavat kimi partiyaların feminist qadınların aksiyasına və sosial şəbəkələrdəki anormal çağırışlarına dəstək verməlləri, onların xarici ağalarının təsiri altında olduqlarını göstərir. Təkamül partiyasının sədri Teyyub Qənioğlu "Səs" qəzetinə açıqlamasında bildirdi ki, siyasi şoularla özlərinə xal qazana bilməyənlər, qadın feministlərin anormal fəaliyyətlərindən bəhrələnməklə, diqqət mərkəzinə çevrilməyə ümid bəsləyirlər: "Belə bir misalı var, suda boğulan saman çöpündən yapışar._**

Bu insanlar mövqeyindən asılı olmayaraq istənilən şəxsi öz tələlərinə keçirməyə meyillidilər. Adları çəkilən şəxslər, belə hesab edirlər ki, feminist qadınların çağırışlarından istifadə etməklə, nəyəsə nail ola bilərlər. İcazəsiz aksiyalara çıxan qadınları dəstəkləməklə, onları öz tərəflərinə çəkə biləcəklər. Təbii ki, dağıdıcı müxalifət partiyalarının feminist qadınların aksiyasına və sosial şəbəkələrdəki anormal çağırışlarına dəstək vermələri, tamamilə yolverilməz bir haldır. Feminist adı ilə meydana çıxan qadınların bu çağırışları, feminizmlə heç bir əlaqəsi yoxdur. Demək olar ki, həmin qadınlar küçələrə fahişəliyi təbliğ etməyə çıxmışdılar. Fahişəliklə feminizm arasında göylə yer qədər fərq var. Bir sözlə, bəzi dağıdıcı müxalifət partiya sədrlərinin feminist qadınların aksiyasına dəstək vermələri tamamilə əxlaqdan kənar və siyasətçiyə yaraşmayan bir haldır. Ümumiyyətlə, bu cür çağırışları dəstəkləməyin özü əxlaqdan kənar bir haldır. Əxlaqdan kənar çağırışı dəstəkləməyin adı elə əxlaqsızlıqdır. Bunun başqa bir adı yoxdur. Bu qədər qadının birdən - birə küçəyə çıxması özbaşına deyil, yəni kimsə bunları təşkilatlandırıb. Dünyada Azərbaycan qadını kimi namuslu, qeyrətli və ailəcanlı qadınları tapmaq çox çətindir. Azərbaycan kimi qadınların hüquqlarını qoruyan dünyada ikinci bir dövlət varmı? Təbii ki, yoxdur. Şərqdə ilk dəfə qadına azadlıq verən, səs hüquqi verən elə Azərbaycan olub. Belə bir ölkədə bu hərəkətlərin təşkil olunması ölkəni, milləti və dövləti gözdən salmaqdan başqa bir şey deyil. Yəni bunların arxasında Azərbaycan dövlətini istəməyən və ölkədə nə isə xoşagəlməz bir vəziyyət yaratmaq istəyən qüvvələr dayanır. Amma onların bu istəkləri baş tutmayacaqdır. Çünki Azərbaycan dövləti güclü və qüdrətli dövlətdir.

**_GÜLYANƏ_**

# Bakıda kuryoz cinayətin üstü açılıb

İctimai təhlükəli hərəkətlərdən polisin yayındırılması məqsədilə martın 14-də paytaxt sakininin evindən 1150 manat məbləğində pul və 1200 manat dəyərində qızıl-zinət əşyalarının oğurlanması ilə bağlı 102 - Zəng Mərkəzi Xidmətinə müraciət daxil olub.




Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müraciət üzrə təxirəsalınmaz əməliyyat-axtarış tədbirlərinə başlayan polis əməkdaşları oğurluq əməlində şübhəli bilinən şəxsləri müəyyən edərək saxlayıblar.

Nəsimi Rayon Polis İdarəsinin 21-ci polis bölməsi əməkdaşlarının fakt üzrə peşəkar əməliyyat tədbirləri nəticəsində şübhəli şəxslərdən - 1989-cu il təvəllüdlü, əvvəllər məhkum olunan K.Mustafayevdən 1,805 qram heroin, 1,215 qram xaş-xaş, 0,286 qram marixuana, 0,644 qram həşiş, bir kapsula peraqabalin və R.Fətəliyevdən isə 8,352 q heroin aşkarlanaraq götürülüb.

Şübhəli şəxslərin ətrafında aparılan araşdırmalar nəticəsində məlum olub ki, pul və qızıl-zinət əşyalarının oğurlanması ilə bağlı 1992-ci il təvəllüdlü Ə.Hüseynzadənin verdiyi məlumat yalandır. Müəyyən olunub ki, oğurluq faktı ilə şübhəli şəxs qismində saxlanılanlar aşkarlanan narkotik vasitələri Nəsimi rayonunda yaşayan Ə.Hüseynzadənin evindən oğurlayıblar. Ə.Hüseynzadənin hərəkətində cinayət tərkibi olduğu nəzərə alınaraq, o tutulub.

Faktla bağlı hər üç şəxs barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə Nəsimi Rayon Polis İdarəsinin İstintaq Şöbəsində cinayət işi başlanıb. Şübhəli şəxslər ətrafında əməliyyat-axtarış, əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Ölümlə nəticələnən yol qəzası olub



Şəmkir rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən SİA-ya verilən məlumata görə, Martın 17-də saat 18:00 radələrində rayonunun Zəyəm qəsəbəsi ərazisində Sabirkənd kənd sakini Seyrac Məmmədov idarə etdiyi "VAZ-2107" markalı avtomobili yolun kənarındakı ağaca vurub və o, aldığı xəsarətlərdən hadisə yerində ölüb.

# Silahlı münaqişə qurbanlarının hüquqlarının müdafiəsi

***Beynəlxalq humanitar hüququn "Cenevrə hüququ" adlanan hissəsinin əsasını silahlı münaqişələr zamanı sıradan çıxmış, yaxud silahlı münaqişədə iştirak etməyən şəxslərin himayəsi, yəni onların mühafizəsi və onlarla humanitar rəftarın təmin edilməsinə xidmət edən müddəalar təşkil edir.***

Himayəçilik burada müharibə şəraitində, ümumiyyətlə, zəruri zorakılıqdan müdafiəni deyil, müharibə zamanı bir döyüşən tərəfə mənsub olan şəxsin, digər döyüşən tərəfin hakimiyyəti altına düşməsi halında özbaşnalıqdan mühafizəni nəzərdə tutur. "Himayədə olan şəxs" anlayışı sıradan çıxmış və ya hərbi əməliyyatlarda iştirak etməyən kambatant anlayışından daha genişdir. Himayədə olan şəxslərə yaralı və xəstələr, gəmi qəzasına düşənlər, hərbi əsirlər və mülki əhali aid edilir. Cenevrə Konvensiyaları müddəaları müdafiəsiz olanlara himayə və qayğını tələb edir. I və II Cenevrə Konvensiyalarının 12-ci maddəsində yaralı və xəstələrə, gəmi qəzasına düşənlərə himayə və qayğı aşağıdakı kimi öz ifadəsini tapmışdır: "Silahlı qüvvələrin şəxsi hey'əti və növbəti maddədə göstərilən digər şəxslər yaralı və xəstə olduqları bütün hallarda himayə edilməli və mühafizə olunmalıdır. Münaqişə edən tərəf onun tabeliyi altına düşənlərlə cins, irq, milliyyət, din, siyasi əqidə və ya digər bu kimi me'yarlara əsaslanan hər hansı ayrı-seçkilik qoymadan, humanist rəftar etməli və onlara qayğı göstərməlidir. Onların həyatına hər hansı qəsd və ya şəxsiyyətini təhqir edən hərəkət qəti qadağan edilir. Xüsusilə də, onlar öldürülə, məhv edilə, işgəncələrə və ya bioloji sınaqlara məruz qoyula bilməz. Onlar nə tibbi yardımsız və qulluqsuz qoyula, nə də qəsdən yoluxdurucu şəraitdə saxlana bilməz. Yalnız təxirəsalınmaz tibbi səbəblərə görə, tibbi yardım göstərilməsində növbə üstünlüyünə yol verilə bilər.

Qadınlarla onların cinsinə uyğun şəkildə xüsusi hörmətlə rəftar edilməlidir. "Hərbi əsirlərlə rəftara dair" III CK-nın 13-cü maddəsi, "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV CK-nın 27-ci maddəsi hərbi əsir və mülki əhali haqqında oxşar himayə və qayğını nəzərdə tutur. Bu kateqoriyadan olan şəxslərə himayə və qayğı göstərilməsinin zəruriliyi CK-ya Əlavə Protokollarda da öz əksini tapmışdır. Məsələn, I Əlavə Protokolun 10-cu maddəsində göstərilir ki, "hansı tərəfə mənsub olmalarından asılı olmayaraq, bütün yaralılara, xəstələrə və gəmi qəzasına uğrayanlara hörmət və mühafizə göstərilir. Bütün hallarda, onlarla humanist rəftar edilir, maksimum mümkün dərəcədə və ən qısa müddətdə, onlara vəziyyətlərinə uyğun tibbi yardım və qayğı göstərilir. Tibbi mülahizələr istisna olmaqla, heç bir mülahizəyə görə, onların arasında fərq qoyulmur". Himayədə olan şəxslərin hüquqlarının məhdudlaşdırılmasına yol verilməməsi üçün I Əlavə Protokolda "Əsas təminatlar" adlanan xüsusi bölmə nəzərdə tutulmuşdur. Bölmənin 75-ci maddəsində insan hüquqlarının müharibənin xüsusi şəraitinə uyğunlaşdırılmış icmalı öz əksini tapmışdır. Bu maddədə, insan hüquqlarının minimum standartları təsbit edilmişdir. Maddədə münaqişədə olan tərəflərin tabeliyinə düşmüş şəxslərlə heç bir ayrı-seçkilik qoyulmadan "bütün hallarda humanistcəsinə rəftar" edilməsi tələb olunur. 75-ci maddədə himayədə olan şəxslərə tətbiq edilməsi qadağan olan hərəkətlər də öz əksini tapmışdır. Bununla yanaşı 75-ci maddənin əsas hissəsini himayədə olan şəxslərə qarşı mühakimə icraatı aparılması zamanı gözlənilməsi zəruri olan prinsiplər təşkil edir. Cenevrə Konvensiyalarında hörmət və mühafizəni təsbit edən normaların bir qismi hərəkət tələb edirsə, digər bir qismi isə, müəyyən hərəkətlərdən çəkinməyi tələb edir. Məsələn, "adamlarla humanist rəftar edilməlidir" tələbi hərəkəti nəzərdə tutduğu halda, onlarla "qəddar rəftar etmək olmaz" və ya onları "işgəncələrə mə'ruz qoymaq olmaz" tələbi həmin hərəkətlərdən çəkinməyi nəzərdə tutur. Lakin himayədə olan şəxslərin hakimiyyəti altında olan tərəf üçün müəyyən hərəkətlərdən çəkinmək vəzifəsi, digər hərəkətləri yerinə yetirmək vəzifəsinə çevrilir.

Belə ki, hakimiyyəti altında olan himayədəki şəxslərə ziyan vurulmaması, onlara qarşı ədalətsizlik törədilməməsi üçün həmin tərəf bütün zəruri tədbirləri görməlidir. Beynəlxalq humanitar hüquq inkişaf etdikcə onda nəzərdə tutulmuş himayə ilə insan hüquqları haqqında müqavilələrdə verilmiş təminatlar sanki biri-birinə qovuşur. Biz getdikcə daha çox əmin olmağa başlayırıq ki, beynəlxalq hüququn humanistlik hüququ adlana bilən, silahlı münaqişələr hüququ və insan hüquqlarını əhatə edən bir hissəsi bütün insanları istər müharibə zamanı, istərsə də dinc şəraitdə, heç olmazsa, minimum təzminatlar və humanizmlə təmin etməlidir". Beynəlxalq humanitar hüquq rəsmi inkişafını, məhz yaralı və xəstələrin mühafizəsi ilə başlamışdır. XDC əsrin ortalarında döyüş meydanlarında yaralı və xəstə əsgərlərə tibbi yardım göstərilməsi zərurəti meydana çıxmışdı. Anri Dünanın "Salferino xatirələri" kitabında bədii ifadəsini tapmış yaralı və xəstə əsgərlərə tibbi yardım göstərilməsi zərurəti artıq hüquqi tənzimləmə tələb edirdi. 22 avqust 1864-cü ildə Cenevrədə keçirilən diplomatik konfransda qəbul edilmiş "Quru müharibələri zamanı yarah və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında" Konvensiya bu sahədə qəbul edilmiş ilk beynəlxalq hüquqi sənəd oldu. Konvensiya 10 maddədən ibarət idi. Həmin maddələrdə hərbi sanitar arabaları və qospitalların neytrallığı, onların mühafizəsi və onlara hörmətlə yanaşılmanın təmin olunması, neytrallığın tibbi heyətə və öz vəzifələrini icra edən ordu ruhanilərinə şamil edilməsi, düşmən əlinə keçdikləri təqdirdə, onların azad edilməli və öz düşərgələrinə qaytarılmalı olması, yaralılara köməyə gəlmiş dinc əhaliyə hörmətlə yanaşılmasının zəruriliyi, yaralı və xəstə əsgərlərə kimin tərəfində döyüşməsindən asılı olmayaraq, qayğı göstərilməsi, ağ rəng fonunda qırmızı xaç işarəsi qospital və tibbi heyətin mühafizə olunmasını təmin edən fərqləndirici nişan kimi istifadə olunması nəzərdə tutulurdu. Beynəlxalq humanitar hüququn yaralı və xəstələrin mühafizəsi ilə bağlı müddəaları özünün sonrakı inkişafını 1907-ci il IV Haaqa Konvensiyası, 12 avqust 1949-cu il Cenevrə Konvensiyaları və 8 iyun 1977- ci il Cenevrə Konvensiyalarına Əlavə Protokollarda tapdı. I və II Cenevrə Konvensiyalan tamamilə, IV Cenevrə Konvensiyasının "Mülki əhalinin müharibənin müəyyən təfsirlərindən mühafizəsinə dair ümumi müddəaları adlanan II hissəsi və I Əlavə Protokolun "Yaralılar, xəstələr, gəmi qəzasına uğrayanlar" adlanan II hissəsi yaralı və xəstələrin mühafizəsinə həşr olunmuşdur.

Cenevrə Konvensiyaları yaralı, xəstə və gəmi qəzasına uğrayanları silahlı qüvvələrin beyətindən və ya mülki şəxslərdən olmasından asılı olaraq, onların mühafizəsi qaydasım fərqləndirir. I Əlavə Protokol bu fərq aradan qaldırılmaqla, yaralı, xəstə və gəmi qəzasına düşənlərin mülki şəxs və silahlı qüvvələrin üzvü olmasından asılı olmayaraq, onların mühafizəsinin vahid qaydasını müəyyənləşdirmişdir. Bu, Əlavə Protokolun 8-ci maddəsində yaralı, xəstə və gəmi qəzasına uğrayanlara verilmiş anlayışda da öz əksini tapmışdır. Protokola əsasən, "yaralılar" və "xəstələr" dedikdə, zədələnmə, xəstəlik və ya fiziki və ya ruhi nasazlıq və əlillik nəticəsində, tibbi yardıma və ya qulluğa ehtiyacı olan və hər hansı düşmənçilik hərəkətlərindən çəkinən hərbçilər və mülki şəxslər nəzərdə tutulur. Bu terminlər, həmçinin, zahılara, yeni doğulmuş körpələrə və hər hansı düşmənçilik hərəkətlərindən çəkinən digər şəxslərə, məsələn, taqətsiz şəxslərə və hamilə qadınlara da aiddir.

"Gəmi qəzasına uğrayanlar" dedikdə, onların və onları daşıyan gəminin və ya uçuş aparatının düçar olduğu fəlakət nəticəsində, dənizdə və ya başqa sularda təhlükəyə məruz qalan və hər hansı düşmənçilik hərəkətlərindən çəkinən hərbçilər və mülki şəxslər nəzərdə tutulur. Göründüyü kimi, həm yaralı və xəstələr, həm də gəmi qəzasına düşənlərin himayə altına alınması üçün zəruri şərtlərdən biri onların düşmənçilik hərəkətlərindən çəkinməsidir. Düşmənçilik hərəkətləri ilə məşğul olmaq onları yaralı və xəstə statusundan məhrum edir. Himayə üçün ikinci şərt isə tibbi yardıma tələbatın olmasıdır. Qeyd etmək lazımdır ki, II Əlavə Protokolun 7-ci maddəsində də "bütün yaralılara, xəstələrə, gəmi qəzasına uğrayanlara, onların silahlı münaqişədə iştirak edib-etməmələrindən asılı olmayaraq, hörmət və himayə" göstərilməsi öz əksini tapmışdır. Protokola əsasən, bütün hallarda, onlarla insanpərvərliklə rəftar edilməli və maksimum mümkün dərəcədə və ən qısa müddətdə, vəziyyətlərinin tələb etdiyi tibbi yardım və qayğı göstərilməlidir. Onlar arasında tibbi mülahizələrdən başqa heç bir mülahizəyə görə fərq qoyulmamalıdır.

II Əlavə Protokolun kommentariyasında mühafizə "əgər bu mümkünsə, yaralı, xəstə və gəmi qəzasına uğrayanlanh hərbi əməliyyatlar zonasından çıxarılması, onların sığınacağa yerləşdirilməsi və onlara həqiqi hörmətin, yəni heç kəsin zəifliyindən istifadə edib, onlarla qəddar rəftar etməyəcəyinə, onlara məxsus olan əmlakı oğurlamayacağına və hər hansı bir tərzdə onlara ziyan vurmayacağına əmin olmağın təmin edilməsinə yönəlmiş tədbirlərin görülməsi" kimi müəyyənləşdirilmişdir. Hörmət "müdafiəsiz adamlarla onların vəziyyətlərinin tələb etdiyi kimi və həmişə humanist rəftar"ı əhatə edir. Humanist rəftar həmişə və hər yerdə tətbiq olunan ümumi prinsipdir və o, hörmət və mühafizəyə aiddir. Tibbi yardım və diqqət göstərmək o deməkdir ki, həmin şəxslərə tibbi yardım göstərilməlidir. Onlar düşmən tərəfə mənsub olduqlarına görə taleyin hökmünə buraxıla bilməzlər. Lakin onlarla faktiki mümkün olandan və eyni şəraitdə öz kambatantlarından daha yaxşı rəftar edilməsi zəruri deyildir. Bu anlayışlara münasibətdə F.Kalsxovenin fikirləri də maraqlıdır. O, göstərir ki, "hörmət" və "mühafizə" eyni prinsipin, biri-birini tamamlayan ünsürləridir. "Hörmət" passiv ünsür kimi himayədə olan şəxslərə ziyan vurmamaq, onlara əzab verməmək, onları öldürməmək öhdəliklərini nəzərdə tutur. "Mühafizə" aktiv ünsür kimi, onlara münasibətdə təhlükəni kənarlaşdırmağı və onlara ziyan vurulmasının qarşısını almağı ehtiva edir. Bu prinsipdə diqqəti cəlb edən üçüncü ünsür-humanist rəftar-himayədə olan şəxslərə münasibətin mənəvi aspektinə aiddir və onlarla rəftarın bütün cəhətlərini əhatə edir. Bu münasibət himayədə olan şəxslərin olduqları ağır şəraiti tam nəzərə almaqla, həmin şəraitin əksinə olaraq, onlar üçün insana layiq mövcudluğu təmin etməlidir. Nəhayət, himayəçilik prinsipinin sonuncu mühüm ünsürünü yuxanda sadalanan üç əsas ünsür araşdırılarkən nəzərə alınmalı olan hər hansı ayrı-seçkiliyin qadağan olunması təşkil edir. Yaralıların və xəstələrini düşmənə tərk etmək məcburiyyətində qalan münaqişədə iştirak edən Tərəf, hərbi şəraitin imkan verdiyi dərəcədə, onlara qayğı göstərilməsinə yardım etmək məqsədilə öz tibbi beyətinin və ləvazimatının bir hissəsini onlara qoyub getməlidir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

19 mart

Son səhifə

## Yasamalda gözətçiyə qarşı quldurluq edilib




Yasamal Rayon Polis İdarəsinin 27-ci polis bölməsinə martın 17-də rayon ərazisindəki MTK-ların birinin gözətçi otağına gəlmiş bir nəfərin gözətçi, Abşeron rayon sakini T.Fərəcovu bıçaqla hədələyərək 100 manatını alması barədə məlumat daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, quldurluğu törətməkdə şübhəli bilinən Bakı şəhər sakini K.Axundov keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində polis əməkdaşları tərəfindən müəyyən edilərək saxlanılıb. Faktla bağlı təhqiqat aparılır.

## Ən ölümcül viruslar niyə yarasalardan keçir?



***Yarasalar yaxın keçmişdə yaşanan və heyvandan insana yoluxan bir çox xəstəliyin əsas mənbəyi kimi qəbul edilir. Bəs ölümcül xəstəliklərə səbəb olan viruslar niyə məhz yarasalarda ortaya çıxır?***

Minlərlə insanın ölümünə səbəb olan Ebola, SARS, Marburq, Nipah kimi viruslarla yanaşı, indi də "COVID-19"un yarasalardan qaynaqlanmış ola biləcəyi düşünülür.

Britaniyanın "Independent" qəzetinin elm dərgisi olan "eLife"da yayımlanan yeni məqaləyə əsasən yaydığı xəbərə görə, bunun səbəbi məməli sinfi daxilində minə yaxın növü olan və uça bilən yeganə canlı - yarasaların uçma qabiliyyəti qazanma prosesində viruslar üçün inkişaf sahəsinə çevrilməsidir.

Başqa cür desək, yarasaların təkamül prosesində uçmasını təmin edən bəzi adaptasiyalar, eyni zamanda yüksək funksiyaları immun sisteminə sahib olmalarını təmin edib./publika.az

## Gülnarə Kərimovaya hökm oxundu



Özbəkistanın sabiq prezidenti İslam Kərimovun qızı Gülnarə Kərimova və onunla əlbir olan şəxslərin məhkəmə işi başa çatıb. Oxu.Az xəbər verir ki, Qazaxıstanın Ali Məhkəməsi Gülnarə Kərimovanı 13 il dörd ay müddətinə azadlıqdan məhrum edib.

Cəza müddəti 21 avqust 2015-ci il tarixindən hesablanacaq. Kərimova ilə əlbir olan şəxslərə də fəaliyyətlərinin ictimaiyyət üçün təhlükə dərəcəsindən, həmçinin cinayətlərdə iştiraklarından asılı olaraq müvafiq cəzalar təyin edilib.

## Məşhur model karonavirusa görə meşədə yaşayacaq



Futbol üzrə UEFA Çempionlar Liqasının finalında soyunaraq meydançaya çıxması ilə məşhurlaşan model Kinsey Volanski yenidən sosial medianın gündəminə gəlib.

Fanat.Az xəbər verir ki, o, karonavirusla bağlı izləyicilərinin təəcübünə səbəb olan paylaşım edib. Paylaşımına bikini ilə fotolarını da əlavə edən məşhur model karonavirusun sürətlə yayılması səbəbindən meşədə Tarzan kimi yaşayacağını qeyd edib. Hətta izləyicilərdən biri "ömrümün sonuna qədər səninlə meşədə yaşamağa hazıram" yazıb. Qeyd edək ki, Kinsey Volanski sosial şəbəkələrdə izlənmə rekordu qırır. Hazırda onun 3,6 milyon izləyicisi var.

## Almaniyalı tələbə qız bakirəliyini 1,5 milyon avroya satdı



Almaniyada qısa zamanda varlanmağı arzulayan tələbə qız xüsusi sayt vasitəsi ilə bakirəliyini 1,5 milyon avroya satdığını bildirib. "Daily Mail" xəbər verir ki, soyadını bildirmək istəməyən 21 yaşlı İzabela ailəsinin çox kasıb və inanclı olduğunu qeyd edib. Onun valideynləri evlilikdən öncə istənilən intim əlaqələrə qarşı çıxıblar.

Lakin o, artıq 20 yaşında valideynlərinin fikirlərinin yanlış olduğunu düşünürmüş. Buna görə də, İzabella arzusuna çatmaq üçün bakirəliyi ilə vidalaşmaq qərarına gəlib. "Mənim üçün burda qeyri-adi bir şey yoxdur. Zənnimcə ilk dəfə sekslə məşğul olmaq, birinci dəfə basketbol oynamaq kimi bir şeydir", - deyə İzabella vurğulayıb.

Məlumata əsasən, bir neçə nəfər ona bir milyon avrodan çox pul təklif edib, lakin İzabella 1,5 milyon avro təklif edən almaniyalı futbol menecerinin təklifini qəbul edib.

## Koronavirusa yoluxan ilk it öldü



Honkonqda koronavirusa yoluxan ilk it canını tapşırıb. "Daily Mail" xəbər verir ki, it ötən ay xəstəliyə yoluxmuşdu. Martın 13-ü o xəstəlikdən sağalaraq evə buraxılıb. Lakin martın 16-ı it gözlənilmədən ölüb. Qeyd etmək lazımdır ki, onun sahibi ölüm səbəbini müəyyən etmək üçün autopsiya keçirilməsindən imtina edib.

## ELAN

**"Nar" abunəçilərinin nəzərinə!**

"Azerfon" MMC ilə "NarNet" istifadəçiləri arasında telekommunikasiya xidmətlərinin göstərilməsinə dair bağlanmış abunə müqaviləsinin 7.3-cü bəndində 31.03.2020-ci il tarixindən etibarən, aşağıdakı dəyişikliklər ediləcək:

1.1-ci bənddən "internetə qoşulma" sözləri çıxarılsın;

·1.2-ci, 3.2-ci, 4.1.2-ci, 4.3.9-cu bəndlər ləğv edilsin;

·2.3-cü, 2.4-cü və 5.2-ci bəndlərdən "və internetə qoşulma" sözləri çıxarılsın;

·3.1-ci bənddən "və ya genişzolaqlı avadanlıqlar vasitəsilə" sözləri çıxarılsın;

31.03.2020-ci il tarixindən etibarən, "Azerfon" MMC "NarNet" abunəçilərinə internetə qoşulma xidmətləri göstərməyəcək. İnternet xidmətlərinin təmin edilməsi üçün qeyd edilən tarixdən eyni şərtlərlə və qiymətlərlə internetə qoşulma xidmətləri üzrə öhdəlikləri "CityNet" ticarət nişanı ilə tanınan "Uninet" MMC həyata keçirəcək. Daha ətraflı məlumatı www.nar.az və www.citynet.az səhifələrindən əldə etmək olar.

## Dünyada koronavirusa yoluxanların sayı 198 543 nəfərə çatıb



Dünya Səhiyyə Təşkilatı yeni növ koronavirusla bağlı (COVID-19) martın 18-nə olan vəziyyəti açıqlayıb. Məlumatda qeyd olunur ki, 2019-cu ilin dekabrında Çində baş qaldırmış yeni koronavirus artıq 166 ölkəyə yayılıb. Dünya üzrə koronavirusa 198 543 nəfər yoluxub (326 yeni yoluxma), 7 988 nəfər ölüb, 82 779 nəfər isə sağalıb (1 100 yeni sağalanlar).

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**